**“İslahatlar: Dünya Təcrübəsi”**
Tərtib edəni: Sabit Bağırov
Sahibkarlığa Yardım Fondu
"Məşvərət Jurnalı"
Bakı, 1998-2002

# Prezidentlik Təcrübəsi

Hikmət Hacızadə,
*FAR CENTRE,*
*Vitse-prezident*
Bakı, 1996

*İçindəkilər*

- Ronald Reyqan öz Xarici Siyasi Böhranları Haqqında
- Kennedi və Kuba Böhranı.
- Reyqanın İnzibati İslahatları
- Prezident və Parlament
- C.Buş: Deputat Səs Verərkən Nəyə Əsaslanmalıdır
- R.Nikson: Siyasətçi, Oxucular və Qəzetlər
- Mühafizəkarları da Dinləyək. R.Nikson öz fəlsəfəsi haqqında:

* * *

## Ölkənin Böhran Şəraitində İdarə Edilməsi Haqqında

ABŞ-ın 40-cı prezidenti Ronald Reyqanın «Məşvərət»in oxucularına təqdim olunan qeydləri onun «Amerikansayağı həyat» («An American Life», Simon & Shuster, 1990) adlanan xatirələr kitabından götürülüb və bu gün Azərbaycan üçün aktual olan mövzuya - ölkənin böhran şəraitində idarə edilməsinə həsr olunub. Əlbəttə, Reyqanın əsasən ABŞ kimi fövqəldövlətin siyasi elitasına yönəlmiş təcrübəsi və məsləhətləri səkkiz milyonluq Azərbaycana az uyğundur. Amma, hər halda, ABŞ-ın maraqlarına toxunan xarici siyasi böhranlar zamanı onun necə hərəkət etməsi haqqında məlumatı bu qeydlərdən almaq olar.

RONALD REYQAN ÖZ XARİCİ SİYASİ BÖHRANLARI HAQQINDA

LİVAN

“Artıq 1984-cü ilin əvvəlində lap aydın oldu ki, *öz iradəmizin əleyhinə bizim qoşulduğumuz* vətəndaş müharibəsinə son qoyulmasını Livan ordusu ya istəmir, ya da bacarmır. *Müharibənin uzun çəkəcəyi aydın görünürdü.* Dəniz piyadaları hələ də snayperlərin nişanında saxlandığı və toplardan atəşə tutulduğu üçün mən onların 6-cı donanmanın gəmilərinə yerləşdirilməsi əmrini verdim. Bu ölkədə sülhün qorunub saxlanılması üçün qan tökən dəniz piyadaları dislokasiya yerini dəyişdilər.

*Beləliklə, biz Livandan getməli olduq*. Artıq bu zaman səylərimizin əbəs olması hamıya aydın idi. Əsl müharibənin aparılması barədə heç söhbət də ola bilməzdi. Lakin əsgərlərimizin əl-qolunu bağlamış kimi terrorçuların zərbələri altında qoyaraq vətəndaş müharibəsində sanki yarımçıq iştirak etməklə Livanda da qalmaq olmazdı.

Biz kömək etməyə çalışdığımız Livan ordusunun silahı sadəcə yerə qoyub öz yurddaşları ilə döyüşməkdən imtina edəcəyini bəlkə də öncədən görə bilərdik. Hər bir halda mən dəniz piyadalarının Beyruta göndərilməsi barədəki qərarımdan peşman olmuşam və onların məhvi mənə böyük dərd olub.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Mənim inzibati idarəm Livanın acı təcrübəsinə əsaslanaraq xaricdə hərbi qüvvənin tətbiqi prinsiplərini işləyib hazırlayıb. Mən Amerikanın gələcək prezidentlərinə də bu prinsipləri əldə rəhbər tutmağı məsləhət görərdim. Budur onlar:
1. Əgər bizim həyati mühüm maraqlarımıza toxunulmayıbsa ABŞ ölkədən xaricdə hərbi əməliyyatlar aparmamalıdır.

2. Əgər ölkə xaricində hərbi aksiyanın keçirilməsi qərarı verilərsə qələbə mütləq təmin edilməlidir. Heç bir halda yarımçıq, yaxud təxmini tədbirlər həyata keçirilməməlidir. Dəqiq ifadə edilmiş gerçək məqsəd olmalıdır.

3. Silahlı müdaxilə barədəki qərar bizim uğrunda mübarizə apardığımız işi Amerika xalqının və Konqresinin dəstəkləməsi və niyyətlərimizlə razı olması əzmiylə təsdiqlənməlidir (hökumət məhz Amerika xalqının onun tərəfində olduğuna öncədən əmin olmadan hərbi aksiyaya başladığı üçün Vyetnam faciəyə çevrildi).

4. Hətta bütün bu şərtlərə riayət olunduğu zaman daha heç bir seçimin qalmadığı son halda hərbi aksiya barədə qərar verilə bilər.

## «SOLİDARNOST» VAXTLARINDAKI POLŞA

«Polşada ayılma və sovet kommunizminin ideyalarından qurtuluş prosesi başlayırdı. O vaxt bunun Şərqi Avropadakı gələcək tarixi hadisələrin müjdəçisi olduğunu biz hələ anlamırdıq. Polşa qoçaqları özündən savayı digər hər hansı bir hakim, yaxud nüfuzlu orqanın yaranmasını yasaqlayan hökumətin iradəsinin ziddinə olaraq əsas insan hüquqlarından birinin həmkarlar ittifaqlarının təşkili hüququnun tələbiylə çıxış edirdilər.

Lakin rəşadətli və təbii azadsevərlik dalğasının yatmadığını görən Polşanın kommunist liderləri Lex Valensanın təsis etdiyi «Solidarnost»un tələblərini minimal ödəməyə məcbur olaraq bu həmkarlar ittifaqını tanıdılar.

Moskva 1981-ci ilin yazında Polşa sərhədi boyunca hərbi manevrlərə başlamaqla bu kimi itaətsizlik əməllərinə qarşı cavab verdi. Varşavada fövqəladə vəziyyət elan olundu, başlanan liberallaşma prosesinin dayandırılması əmri verildi. Artıq o zaman Polşanın iqtisadiyyatı süquta doğru gedirdi və xalqın tələbatını təmin etmək imkanında deyildi. Elə bu zaman Moskva kreditləri kəskin ixtisar edərək onu tam iflas həddinə çatdırdı.

Mənə belə gəlir ki, Polşada həyəcanlı olaylar baş verirdi. «Dəmir pərdə» arxasından insanın ən əsas və qarşısıalınmaz arzularından biri olan azadlıq arzusu özü üçün həyata yol açırdı. Bu, kommunist totalitarizmi istinadgahının ilk çatıydı.

Polşada baş verənlər bütün Şərqi Avropanı da bürüyə bilərdi. Lakin biz öz fəaliyyətimizdə məhdud idik və buna görə də qarşımızda bir sıra problemlər durdu».

Özünün azadlığı uğrunda mübarizəsini dəstəklədiyimizi Polşa xalqına çatdırmağı arzulasaq da inqilab zamanı onlara hərbi yardıma hazır olduğumuz kimi yanlış təsəvvürlər yaradacaq hərəkətə yol verə bilməzdik. Kömək göstərməyi çox istəsək də bizim adamlar Polşada baş verən hadisələrin hamısını dəstəkləyə bilməzdilər, xüsusən də Polşa hökumətinin sovet qoşunlarının yeridilməsini tələb etdiyi anlaşılmaz bir vəziyyətdə.

Biz ölkənin dağılan iqtisadiyyatına dayaq vermək fikrində deyildik, amma eyni zamanda başa düşürdük ki, əgər iqtisadi iflas baş verərsə o, güclü xalq üsyanına təkan verə bilər. Bunun yatırılması üçün də sovet tankları yeridilə bilər və beləliklə də, yaranmaqda olan demokratik hərəkat süquta uğrayar.

Polşanın işlərinə sovet hərbi müdaxiləsinə qarşı *bütün mümkün diplomatik vasitələrlə* müqavimət göstərəcəyimiz barədə Moskvaya məlumat vermişdik. Yazın sonunda kəşfiyyat xidməti Polşaya hazırlanan müdaxilə barədə xəbər verdi. Buna görə də mən belə hərəkətlərin ABŞ və Qərb ölkələrində mənfi reaksiya doğuracağı barədə Brejnevə məktub yazdım. Mən bəyan etdim ki, belə müdaxilə baş verərsə Sovetlər nüvə silahları sahəsindəki yeni razılaşmaları, eləcə də ABŞ-la ticarət münasibətlərinin yaxşılaşmasını unuda və ən sərt iqtisadi tədbirləri gözləyə bilər. Brejnev cavabında dedi ki, Polşada baş verən olaylar Polşa hökumətinin daxili işidir və ABŞ-ın Polşadakı vəziyyətə münasibəti SSRİ-ni maraqlandırmır.

Moskva ilə sonrakı yazışmalarımızda «Brejnev doktrinası»ndan əl çəkməkdən imtina edilməsi daim səslənirdi, mən isə öz tərəfimdən belə siyasətin perspektivsizliyi barədə dediklərimi davam etdirirdim.

Nəhayət, bazar günü dekabrın 13-də Polşa və Moskva konkret tədbirlər gördülər. Polşa hərbi hökuməti heç bir xəbərdarlıq etmədən sərhədi bağladı, «Solidarnost»un öndərlərini həbsə aldı və ölkədə hərbi vəziyyət yaratdı.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Bu gedişat qabaqcadan bildirdiyimiz *hərbi müdaxilə üçün yetərli deyildi*. Mən bu yaxın vaxtda Polşada baş verən hadisələrdə SSRİ-nin rolunu daha kəskin ifadələrlə məzəmmətləyən məktubu Brejnevə göndərdim.

Yeni il qabağı mən Polşa və SSRİ-yə qarşı tədbirlərin həyata keçiriləcəyini və bununla da Polşada insan haqlarının pozulmasına mənfi münasibət bildirdiyimizi elan etdim. Biz taxıl satışı haqqında yeni uzunmüddətli saziş üzrə danışıqları müvəqqəti dayandırdıq, ABŞ-a Aeroflotun reyslərini yasaqladıq, mütəxəssislər mübadiləsi üzrə bir neçə proqramı ləğv etdik. Bundan əlavə, SSRİ üçün xüsusən mühüm olan sənaye mallarının SSRİ-yə nəqlinə embarqo qoyduq. Bunların sırasında Transsibir qaz boru kəmərinin quraşdırılmasında istifadə olunan boruçəkənlər də vardı.

Mən bu siyasətin dəstəklənməsi xahişi ilə Avropalı müttəfiqlərimizə müraciət etdiyim zaman pərt oldum. Onlar ruslara etimadsızlığın göstərilməsinə razılaşdılar, bu zaman qaz boru kəməri üzrə işlərin dayandırılması ilə yox. Bəzi müttəfiqlərin reaksiyası onlar üçün prinsiplərdənsə pulun daha vacib olması fikrini doğururdu.

## FİLİPPİNƏ DEMOKRATİYA NAMİNƏ MÜDAXİLƏ

1984-cü ilin sentyabrında Filippində hökumət əleyhinə əhval-ruhiyyə artmaqdaydı və onun genişlənməsinə imkan verilsəydi o, kommunist üsyançıların fəaliyyətinin canlanmasına gətirib çıxara bilərdi. Mənim yanıma Vaşinqtona gələn Filippin kardinalı Ceyms Sinin fikrincə, Markos getməliydi. Onun mülahizələrinin qızğınlığı məni təəccübləndirdi, lakin mən konkret heç nə vəd etmədim.

Filippinin gələcəyinin ABŞ üçün böyük əhəmiyyəti vardı. Bizim Filippindəki hərbi bazalarımız, «Klark» hərbi-hava və «Subik-Bey» hərbi-dəniz bazalarımız Sakit okeanın qərb hissəsində müdafiəmizin əsasıydı və bizim Markosdan etibarlı müttəfiqimiz yox idi.

Kardinal Sinin gəlişindən sonra fevralda Maniladakı amerikalı diplomatlar Markosda ciddi böyrək xəstəliyinin artması və onun gündəlik iş qabiliyyətinin iki saata enməsi haqqında xəbər verdilər. Onların məlumatına görə, Markosun arvadı İmelda prezidentin əvəzinə bütün məsul qərarları özü qəbul edərək heç kəsi ona yaxın buraxmırdı. Amma onlar etiraf edirdilər ki, Markos *əvvəlki kimi kommunistlər əleyhinə ən yaxşı vasitə olaraq qalmaqdadır və biz onu dəstəkləməkdə davam etməliyik*.

Bir qədər sonra, elə həmin il mənə Maniladakı səfirimiz Stiven Basuortdan Filippində üsyançı kommunistlərin siyasi uğurları haqqında məlumatlar gəlməyə başladı. Mən bu məlumatın yoxlanılması üçün senator Pol Laksaltı Manilaya göndərdim. O, Markos əleyhinə artmaqda olan ictimai qəzəb faktını təsdiqlədi. Markosun diktator olmadığını öz xalqına və bütün dünyaya sübut etmək üçün Pol onu növbəti fevrala prezident seçkisi təyin etməyə razı saldı. Markosun keçmiş rəqibinin dul qadını Korason Akino onun rəqibi oldu. O zaman hamını bir sual düşündürürdü, Markos azad və ədalətli seçkilərə yol verəcəkmi?

1986-cı ilin fevralında, dərhal seçkilərdən sonra mənə aydınlaşdı ki, biz hakimiyyəti itirməkdə olan Markosu Filippindən çıxarmalıyıq. *Markosun təşkil etdiyi seçkilərin ədalətliyinə əmin olmaq üçün Manilada olmuş Konqres nümayəndələriylə görüş zamanı mən bunun zəruriliyi qənaətinə gəldim. Onlar seçki bülletenlərinin saxtalaşdırılmasına dair təkzibedilməz dəlillərin açıq-aydın mövcudluğunu bəyan etdilər.*

Mən Manilaya beynəlxalq vəziyyətlərin qaydaya salınması üzrə mütəxəssisimiz Həbibi göndərdim. O təsdiq etdi ki, Markos seçkilərdə qələbəsini saxtakarlıq yoluyla təmin edib və qanuni qalib xanım Akinonun xeyrinə hakimiyyət çevrilişi qaçılmazdır. Maniladakı hadisələr hədsiz sürətlə inkişaf edirdi: iki ali hərbi rəhbər, müdafiə naziri və general-leytenant istefa verdilər, Akinonu dəstəklədilər, Filippin ordusunun bir hissəsini öz nəzarətinə götürdülər və Markosu istefa verməyi çağırdılar.

Fevralın 23-də Kemp-Deviddə mənə dedilər ki, Markos və ona sadiq general Fablan Ver ordunu və tankları Ramos və Enriliyə sadiq hissələrin üzərinə qaldırıblar. Yüz minlərlə insan tankların yolunu kəsərək onları geri dönməyə məcbur etdi. Mən Markosa qüvvə tətbiqindən imtina etməsinə çağıran yazılı müraciətimi göndərdim. Ağ Evin məşvərət otağındakı ciddi beynəlxalq böhranlar zamanı bizim yığıldığımız iclasda C.Buş, C.Şults, Kep Uaynberger, Don Riqan, Fil Həbib, Bill Keysi və milli təhlükəsizlik üzrə köməkçi Con Poyndekster, eləcə də Dövlət Departamenti və digər qurumlardan ekspertlər iştirak edirdilər.

Mənim üçün bütün faktları nəzərə almaqla qərar qəbul etmək asan idi, amma bu, mənə xüsusi bir zövq də vermirdi. İştirakçılar razılaşdılar ki, Manilada qan tökülməməsi üçün mümkün olan şeylərin hamısı edilməlidir və vətəndaş müharibəsinə yol verilməməlidir. Bu zaman mən bir vaxt digər keçmiş müttəfiqimiz İran şahı ilə gözəl olmayan rəftarımız kimi Markosla da eyni cür davranmayacağımıza əmin olmaq istəyirdim. Mən eyni zamanda Filippinin yeni hökumətiylə yaxşı münasibətlərin qurulmasının mümkünlüyünü də anlayırdım.

HİKMƏT HACIZADƏNİN
Arxiv
2025
KİTABXANASINDAN

Mən Markosa Filippindən getməyi təklif etməyi və ona ailəsilə birlikdə ABŞ-da sığınacaq verməyi qərara aldım. Mən söylədim ki, biz ona vəziyyətinin bütün ümidsizliyini və acınacaqlılığını başa salmalıyıq və onu hakimiyyətdən könüllü əl çəkməyə inandırmalıyıq. Prezident Markos inad göstərdi və ölkəni idarə etməyi bacarmadığını boynuna almadı. Mən şəxsi məktubumun ona təsir edəcəyini söylədim, çünki zorakılıq baş verərsə Filippinə yardımı davam etdirə bilməyəcəkdim. *Biz öz iradəmizi başqalarına aşılamamalıyıq. Bizim edə biləcəklərimiz məktub göndərmək və dua etməkdən ibarətdir.*

Filippindəki vəziyyət pisləşdi. Markosun və general Verin ailələri sarayı tərk edib aeroporta yollandılar. Görünür, sonra general Ver onları dilə tutub yola düşməkdən çəkindirdi. Prezident və general saraya qayıdıb televiziya ilə çıxış etdilər. Onların arasında mübahisə düşdü. General Markosun rəqiblərinin tərəfinə keçən hərbçilərə divan tutulmasında israrlıydı. Prezident bunun qəti əleyhinəydi.

Mən prezidentə göndəriləcək məktubun zorakılığa qarşı çağıran mətnini təsdiq etdim. Sonra Nensinin zəngi oldu: ona zəng edən Markosun arvadı İmeldaya nə deməli? Elə bu zaman Pol Laksolt, C.Şults, Con Poyndekster və Don Riqan Polun Markosa zəngi ilə əlaqədar yanıma gəldilər. Biz ona, onun getməsi haqqında mənim rəyimi, bizimsə onun təhlükəsizliyi və ona ABŞ-da sığınacaq verilməsi barəsində danışıqlarla məşğul olacağımızı söyləməyi qərara aldıq. Əgər o, ömrünü sonacan Filippində keçirmək istəyirsə, nə olar, bunu da təşkil etməyə səy göstərərik.

Bu dəfə telefon fevralın 25-də 6.45-də zəng çaldı. Mənə deyildi ki, prezident Markos, onun ailəsi və yaxın ətrafı bizim aviabazamız «Klark»dadırlar. Onun hara yola düşməsi bizə hələ məlum deyildi, özü isə Filippində qalmaq istədiyini deyirdi. Luson adasının şimal hissəsində onun malikanəsi vardı. Biz Akino ilə əlaqəyə girmək və təhlükəsizliyinə zəmanətin verilməsi şərtilə Markosun adalarda qalmasına icazə üçün Akinodan razılığın alınmasına səy göstərmək barədə səfirə sərəncam verdik.

Gün ərzində məlum oldu ki, Akino bu sövdəyə getməyəcək. Yeri gəlmişkən, o, ciddi xəstədir və yataqdan qalxmır. Axşam məlum oldu ki, o, özünə yaxın şəxslərlə Quam adasına uçub. Onu təyyarədən xərəkdə çıxartdılar. Havay adalarında məskunlaşan Markoslar bir neçə dəfə Nensiylə, mənimlə, Pol Laksoltla əlaqəyə girib özlərinin hələ də Filippinin prezidenti və birinci xanımı olaraq qaldıqlarına bizi inandırmağa çalışdılar. *Lakin biz heç nə edə bilməzdik. Biz Korasan Akinonu Filippinin qanuni seçilmiş prezidenti kimi tanıdıq və ona öz köməyimizi təklif etdik.*

* * *

# Kennedi və Kuba böhranı.

Sərhəd və sərhədyanı neft yataqları ətrafında Azərbaycan-İran böhranı gənc Azərbaycan dövləti üçün dramatik sınaq və bütün cəmiyyətimiz üçün güclü sarsıntı oldu. İran hərbi qüvvələrinin gəmisi və təyyarəsi güc tətbiq etmək hədəsiylə Azərbaycan geofizika gəmisini İran-Azərbaycan sərhədinin mübahisəli xətti yaxınlığındakı dəniz kəşfiyyatı yerini tərk etməyə məcbur etdi. Ölkə vətəndaşları bir an içində dərk etdilər ki, Azərbaycan eyni zamanda Ermənistan, Rusiya, Türkmənistan və indi də İranla müxtəlif ağırlıqlı münaqişələrə cəlb olunub.

Əvvəllər İranın mübahisəli dəniz ərazilərində işlərin dayandırılması haqqındakı xəbərdarlıqlarına məhəl qoymayan hökumət isə münaqişədən sonra İran təyyarələrinin Xəzərin Azərbaycan sektorunda davam edən uçuşlarına heç bir reaksiya vermədi; ictimaiyyət və müxalifət İran təyyarələrinə hücum edilməsinə, ölkədə NATO hərbi qüvvələrinin yerləşdirilməsinə və Güney Azərbaycan inqilabına təkan verilməsinə çağırırdılar.

Göründüyü kimi, bu tamamilə gözlənilməz böhrana ölkənin cavab reaksiyası tam uyğun olmadı. İranın rəftarının qeyri-adekvatlığı (münaqişə İranın mühafizəkar dini rəhbərliyi tərəfindən təhrik edilmişdi) haqqında isə danışmağa da dəyməz. Tərəflərin münaqişə zamanındakı hərəkətlərini "rəşadətli" adlandırmaq olar.

Ancaq göstərək ki, böhran vəziyyətindəki çaşqınlıq daha yetkin və güclü cəmiyyətlərə də xasdır. Biz, aşağıda oxucunu orta təsir radiuslu sovet raketlərinin Kubada yerləşdirilməsindən sonra prezident C.F.Kennedinin "rəşadətli" davranışının yeni aşkarlanmış maraqlı təfərrüatları ilə tanış edəcəyik. Bu, Bryus Mayrofun "Demokratiyanın simaları" (Bruce Miroff, ICONS OF DEMOCRACY, Basic Books, A Division of Harper Collins Publishers) kitabında yaxşı təsvir olunub.

MAKSİMAL TƏHLÜKƏ VAXTINDA «RƏŞADƏTLİ» RƏHBƏRLİK

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Con Kennedi özünün inauqurasiya nitqində söyləmişdir: «Bəşər tarixinin uzun əsrləri boyu maksimal təhlükə vaxtı azadlığın müdafiəçisi rolu çox az şəxsə qismət olub. Mən bu məsuliyyətdən kənara çəkilmirəm. Mən onu qəbul edirəm». O, milləti beynəlxalq böhranlardan çıxarmaq vədini bu sözlərlə ifadə etmişdi. Kennedinin kommunizmin qlobal qüvvələrinə qarşı «soyuq müharibə»də mübarizənin qüvvətləndirilməsi üzrə çağırışları onun prezidentliyinə stimullar verir və onun daxili siyasət problemlərinə münasibətdə özünü göstərməyən məqsədi ortaya çıxarırdı. Kennedi xəbərdarlıq edirdi ki, bu mübarizə təhlükəli olacaqdır, lakin bunun nəticəsində Amerika öz gücünü və möhtəşəmliyini yalnız bərqərar edəcəkdir. «Heç bir millət heç bir zaman bu kimi çağırışla qarşılaşmadığına görə, heç bir millət azadlığın yükünü və bəhrəsini öz üzərinə götürməyə bu qədər hazır deyildi». Kennedinin fikrincə, «soyuq müharibə»nin intensivləşdirilməsi qəhrəman tərəfindən ilhamlandırılan yeni səylər tələb etməliydi.

Kennedi hələ prezidentliyə namizəd olanda xarici siyasətdəki amerikan «yumşaq sentimentalizm»ini özünün «sərt planları və fəaliyyəti» ilə əvəz etməyə söz vermişdi. Kennedi vəzifəyə Amerika xarici siyasəti üçün çox irəli gedən məqsədlə gəlmişdi. Bu strategiyanın əsasında kəsilməz münaqişə halında olan dünya haqqında konsepsiya dururdu. Kennedinin və onun xarici siyasət üzrə əsas müşavirlərinin nəzərində 1957-ci ildə Yerin süni peyki uçuşa buraxıldıqdan sonra Sovet İttifaqı və kommunist düşərgəsinin qarşısıalınmaz irəliləyişi Yer kürəsinin hər bir guşəsini Şərq və Qərb arasında mübarizə meydanına çevirmişdi. Kennedi üçün Amerika strateji qüvvələrinin kütləvi surətdə çoxaldılması və fövqəldövlətlərin qarşıdurmasında amerikan qətiyyətinin nümayiş etdirilməsi vasitəsilə sovet nüvə şantajını pozmaq zəruriydi.

Kennedinin qlobal strategiyası qlobal vüsətli və qətiyyətliydi. Ancaq belə siyasətdə dərrakə yox, lovğalıq əlamətləri gördükdə onu məziyyətə deyil, daha çox çatışmazlığa aid etmək olardı. Onun xarici siyasəti qlobal mübarizədə məhəlli münaqişələri böhranlı döyüşlərə çevirərək daim hadisələrin ciddiliyini artırırdı. Berlindəki, Kubadakı və Vyetnamdakı qarşıdurmalar onun meydan oxuması, amerikan qətiyyətinin, təmkininin və cürətinin sınağı kimi qəbul olunurdu. Onların hər biri Birləşmiş Ştatları öz qüdrətini sübuta yetirməyə, yaxud haradasa azadlığın dönmədən yox olmasını müşahidə etməyə məcbur edən taleyüklü anlar yaradaraq iradə böhranına gətirib çıxarırdı. Kennedinin əqidəsinə görə, böhran onun dövrünün fərqləndirici əlaməti və onun rəşadətli rəhbərliyinin meydanı idi. “Soyuq müharibə”nin ən qorxulu böhranlarının məhz onun hakimiyyəti illərində baş verməsi heç də təsadüfi deyildir.

Kennedi söyləyirdi: “Şübhəsiz ki, bu qətiyyətli və güclü sistem (yəni kommunizm) hər yerdə - Berlində, Asiyada, Yaxın Şərqdə, bizim yarımkürədə əsəblərimizi və iradəmizi yoxlayaraq bu yaxın illərdə bizi çox sınaqlara çəkəcəkdir. Biz bir-birinin ardınca meydan oxumaqlarla qarşılaşacağıq”.

Əlbəttə, belə bəlağətli bəyanatın arxasında müəyyən siyasi niyyət gizlənirdi. Kennedi Eyzenhauerdən də kəskin danışaraq, bununla özünü sağdakı qatı antikommunistlərdən qoruyurdu. *Onun “soyuq müharibə” zamanı şücaətli səylər göstərilməsi barədəki çağırışları vətəndaşları birləşdirdi və ona bütün prezident seçkiləri tarixində ən yüngül qələbəni çalmağa imkan verdi.* Fəqət belə hədsiz tez-tez olur və Kennedi ilə müşavirləri arasındakı söhbətlərə olduqca bənzəyirdi; bunlara geniş auditoriya qarşısında söylənilən nitqlərdə işlədilə bilməzdi. Kennedi öz söylədiyinə prinsipcə inanırdı. O, həmin dövrdə sovet lideri Nikita Xruşşovun göndərdiyi siqnallara məhəl qoymurdu. Bu siqnallarda isə artıq hər iki fövqəldövlət arasındakı gərginliyin aradan qaldırılmasının mümkünlüyü sezilirdi.

Bu davakar bəyanatlardan, silahlanmanın gücləndirilməsindən, amerikalıların təşkil etdiyi Kuba basqınından qıcıqlanan Xruşşov da hirslənərək davakar tona keçdi və Vyanada Kennedi ilə keçirilən yüksək səviyyəli görüşdə Berlinin və hər iki Almaniyanın həll edilməmiş statusu üzrə Sovet-Amerika qarşıdurmasının başlanğıcını qoydu. Eyzenhauer 1958-ci ildə Xruşşovun Berlindəki vəziyyətlə bağlı ultimatumu ilə qarşılaşmış və onu rədd etmişdi. Fəqət o, bu vəziyyətə mülayim münasibətlə onun gərginliyini azaltdı və danışıqların aparılması arzusunu bildirdi. Maykl Beşlossun yazdığına görə, *“xarici siyasət böhranlarının yatırılmasında Eyzenhauerə kömək edən instinkt”* Kennedidə yox idi. Doğrudur, o da alman məsələsi üzrə danışıqların aparılmasına hazırdı, amma Amerikanın qətiyyətli və möhkəm mövqeyini kütləvi nümayiş etdirdikdən sonra. 1961-ci il mayın 25-də televiziya ilə verilən dramatik nitqində o, Qərbi Berlini “Qərb cəsarətinin və iradəsinin böyük sınaq meydanı” kimi təsvir etmişdi. Berlin ətrafında *cəmləşən hərbi gücün hətta qeyri-əlverişli tarazlığı şəraitində belə* o, bu cür çətinlikdən çəkinmədi. “Əgər insanlar - mərd insanlar istəsələr, təhlükə altındakı istənilən mövqe müdafiə oluna bilər”.

Kommunistlər Berlin səddini tikdikdən sonra Xruşşov qarşıdurmadan tərəddüdlü danışıqlara keçdi. Fəqət 1961-ci ildə Berlinlə əlaqədar olan münaqişə qızğın silahlanmanı daha da sürətləndirdi və hər iki fövqəldövlətə sirayət edən böhran əhval-ruhiyyəsini gücləndirdi. Bu, “soyuq müharibə” tarixinin ən təhlükəli böhranına müqəddimə oldu.

Hikmət Hacızadənin
Arxiv
2025
Kitabxanasından

Son 10 ildə əvvəllər məxfi sayılan sənədlərin nəşri və Kuba böhranının Amerikalı, Sovet və Kubalı iştirakçılarının görüşdüyü elmi konfransların ardıcıllığı onun necə keçdiyi barədə yeni versiyanı üzə çıxardı. Bir çox şeylər vəziyyətin şərhindəki və hər iki tərəfin mülahizələrindəki səhvlərdən irəli gəldiyi aydın oldu. İndi sovet alimləri etiraf edirlər ki, Xruşşovun orta təsir radiuslu raketləri Kubaya gizlincə göndərməsi düşünülməmiş hərəkətdi. Sovetlər Kubadakı vəziyyətin prezident Kennedi üçün siyasi tikan olduğunu nəzərə almadan bu addımı atmışdılar. Hər halda, amerikalı iştirakçılardan bəziləri (və amerikalı alimlərin əksəriyyəti) sovet liderinin bu qambitinin aqressiv yox, daha çox müdafiə xarakteri daşıması və Kennedi hökumətinin əvvəlki hədələyici aksiyalarına (özünü Kastro Kubasının qorxudulmasında və Amerikanın nüvə üstünlüyü barədəki Xruşşovu heyrətləndirmiş kütləvi bəyanatlarda göstərmiş) cavab olması ilə razılaşırlar.

Prezidentin yanındakı İcra komitəsinin (EKSKOM) iclaslarının açıqlanmış stenoqramları və yazıları böhran zamanı prezident Kennedinin ruhi vəziyyəti və davranışı barədə daha tam xəbər verir. Bizdə raket böhranının yalnız birinci və sonuncu günlərindəki (16 və 27 oktyabr) iclasların tam yazısı var və buna görə də hadisələrin yarımçıq mənzərəsini görürük. Buna baxmayaraq, Kennedinin böhranın əvvəlindəki və sonundakı davranışının müqayisəsi təəccüblü dönüşü, müzəffər amerikalı "qəhrəmanı"ın hərəkətləri barədə ilkin hesabatlarda ciddi-cəhdlə gizlədilən hansısa kulminasiya nöqtəsini göstərir. Bu iclas  yazıları, böhranın əvvəlində riskə qətiyyətlə gedən Kennedinin *onun sonunda qorxmuş, ehtiyatlı və daha cəzbedici insana çevrildiyini göstərir*.

Böhranın birinci günündə (16 oktyabr) EKSKOM-un iclaslarında Kennedi Kubada sovet raketlərinin yerləşdirilməsinə qarşı müşavirlərinin təklif etdiyi xüsusi diplomatik cavabı rədd etdi və hərbi tədbirlərin bir sıra variantları barədə fikirləşməyə başladı. Ona xüsusilə də üç variant təklif olunmuşdu: raket mövqelərinə məhdud hava hücumu; bütün Sovet-Kuba HHM sistemlərinin havadan tammiqyaslı bombalanması; Kubaya basqın. O, EKSKOM üzvlərinə cavabında aşağıdakını demişdi: "Mən hesab etmirəm ki, bu raketlərin öhdəsindən gəlmək üçün bizim kifayət qədər vaxtımız var... Biz, basqına hazır olacağımız iki həftəni də gözləyə bilmərik... Biz, əlbəttə ki, birinci variantı seçəcəyik. Biz həmin raketləri neytrallaşdıracağıq".

Onun milli təhlükəsizlik məsələləri üzrə xüsusi köməkçisi Makcorc Bandi elə oradaca onun nəzərinə çatdırdı: *"Cənab prezident, siz dəqiq deməlisiniz ki, biz həqiqətən də siyasi variantdan imtina etməyə qərar veririkmi". Kennedi bunun məhz belə olduğunu söylədi*. Halbuki o, havadan güclü zərbəni seçdiyi halda "dünyadakı mənfi reaksiya təhlükəsini" anladığı zaman onun diqqəti, demək olar ki, tamamilə hərbi tədbirlərin görülməsinə cəmləşmişdi. Kennedi hətta EKSKOM-un iclasının gündəliyini də təklif etdi. Burada əsas məsələ hərbi aksiyaların tətbiq edilib-edilməməsi yox, onlardan hansının həyata keçiriləcəyi idi.

Böhranın birinci gününün əhval-ruhiyyəsində təsadüfən yaranmış məzəli anlar bu böhrana Kennedinin ilkin baxışlarının nə qədər dumanlı olmasını göstərir. O, Xruşşovu Kubada öz raketlərini yerləşdirməyə təhrik edən səbəblər barədə düşünərək demişdir*: «bu, ona bərabərdir ki, biz qəflətən Türkiyədə çoxlu sayda orta məsafəli ballistik raketlərimizi yerləşdirməyə başlayaq. Mən zənn edirəm ki, bu, çox təhlükəli olardı». Bandi burada onun sözünü kəsib dedi: «Cənab prezident, biz bunu artıq çoxdan etmişik».* Kennedinin buna cavabı lap mənasız oldu*: «Bəli, lakin bu, beş il bundan əvvəl olub»*. Bizim qəhrəman lider heç cür etiraf etmək istəmirdi ki, hər iki tərəfin səbəbləri eyni ola bilər və onlar eyni cür hərəkət ediblər. O, böhrana xeyirlə şərin mübarizəsi kimi baxmaqla şəxsən özünü bundan çox asılı etmişdi. Amerika raketlərinin Türkiyədə, sovet raketlərinin isə Kubada yerləşdirilməsinin simmetrikliyinin etiraf edilməsi, ehtimal ki, onu bu problem üzərində dərin düşüncələrə qərq etmişdi. Bu da öz növbəsində, onu Xruşşovun düşünülməmiş ehtiraslı oyununda onun özünün «soyuq müharibə» aksiyalarının oynadığı rolu qiymətləndirməyə gətirib çıxarmışdı.

16 oktyabr iclaslarının bir çox iştirakçısı öz təşkilatlarının və institutlarının maraq və vəzifələrinə uyğun mövqedə dururdu. Dövlət katibi Din Raskı ADT (Amerika Dövlətləri Təşkilatı) və NATO ilə məsləhətləşmədən Birləşmiş Ştatların hərbi aksiyalara başladığı halda həmin qurumların çəkəcəyi diplomatik məsrəflər qayğılandırırdı. Müdafiə naziri Robert Maknamara rəyini aşkar bildirərək dedi: *Kubadakı raketlər Amerikanın strateji üstünlüyünü maddi planda zərrə qədər də  azaltmır*. «Mən düşünmürəm ki, qarşımızdakı hərbi problemdir... Bu, daxili, xalis siyasi problemdir».

Prezident Kennedinin bu dialoqa yeganə *töhfəsi onun qeyd etdiyi rəşadətli rəhbərlik perspektivi oldu*. O, Sovetlərin belə avantürist addım atmaqla sanki öz ənənəvi ehtiyatlı davranışından əl çəkdiyinə əmin olduğuna görə çıxılmaz vəziyyətə düşmüşdü.

Kennedi və EKSKOM bir neçə gün fikirləşdikdən sonra açıq qarşıdurma variantına razılaşdılar. Onlar ümid edirdilər ki, Sovetləri Kubadan raketlərini çıxarmağa məcbur edəcəklər. EKSKOM-un bəzi iştirakçıları «quzğun» mövqeyində qalınmasının və havadan zərbə endirilməsinin tərəfdarı kimi çıxış edərək birinci günün iclaslarına müvafiq əhval-ruhiyyə aşılamalarına baxmayaraq, prezident və onun ən yaxın müşavirləri daha düşünülmüş istiqamət götürməyə səy göstərirdilər: onlar ilk addım kimi adanın dənizdən blokadasına üstünlük verirdilər. Əlbəttə, hərbi dəniz «karantin»i bir qədər mülayim cavabdı, amma, hər halda, hərbi addımdı və onun arxasında dəniz-

HİKMƏT HACIZADƏNİN Arxiv KİTABXANASINDAN

də qüvvələrin mübarizəsi ehtimalı dururdu. Sovet mənbələrinin göstərdiyinə görə, hirslənmiş Xruşşovun özü belə qarşıdurmaya hazır idi, amma qarşılıqlı nüvə zərbələrinin dəhşətini anladıqdan sonra sakitləşdi. Raket böhranı sanki dayanmadan zirvə nöqtəsinə yaxınlaşdıqca blokada və artıq Kubada yerləşdirilmiş sovet raketlərinin həll olunmamış problemi ilə bağlı gərginlik getdikcə Kennediyə öz təsirini daha çox göstərməyə başladı. Oktyabrın 27-də EKSKOM üzvləriylə görüşəndə, sonrakı addımların müzakirəsi zamanı onun mövqeyi oktyabrın 16-dakı mövqeyindən kəskin surətdə fərqlənirdi. *Kubaya münasibətdəki hədələriylə və Amerikanın iri nüvə üstünlüyünün nümayişi ilə Xruşşovu təhrik etdikdən, eləcə də açıq qarşıdurma xeyrinə diplomatiyadan imtina etdikdən sonra Kennedi, Tomas Pattersonun qeyd etdiyi kimi, «axırda elə özünü də qorxutmuşdu». Bu qorxu onun faydasına oldu.*

EKSKOM oktyabrın 27-də öz iclaslarına başladığı zaman çaşqınlıq baş vermişdi: onun üzvləri Xruşşovdan bir-birini ardınca gələn iki məktuba necə reaksiya verəcəklərini.bilmirdilər Onlardan birində amerikalıların Kubaya basqın etməyəcəyi vədi əvəzində raketlərin adadan çıxarılması təklif olunurdu. İkincisində, Sovetlər əvvəlki təklifi bir qədər gücləndirərək Türkiyədəki və Kubadakı raketlərin qarşılıqlı surətdə çıxarılmasında israr edirdilər. Sovetlərin birinci təklifi məqbul qiymətləndirildi. Amma EKSKOM-ün üzvlərinin əksəriyyəti raket «alveri» ideyasının qəti əleyhinə oldu. Onların ehtimalına görə, bunu xüsusilə Amerikanın NATO üzrə müttəfiqləri zəiflik əlaməti kimi qəbul edə bilərdi. Fəqət Kennedi bir neçə dəfə söhbəti «alver» variantı tərəfinə çəkmişdi. Böhranın nəzarətdən çıxdığı və nüvə silahının məcburi tətbiqi halında məhv olacaq milyonlarla insan həyatına görə öz məsuliyyətini hiss edərək o, indi hər cür hərbi aksiyadan aralanmağa səy göstərirdi. Kuba raket böhranı kimi bir anda vahimə, *Cozef Payın qeyd etdiyi kimi, «dərrakənin kəskinləşməsini» oyatmağa qabildir.* Məhz elə bu da Kennedinin başına gəldi. İndi o, EKSKOM-u Xruşşovun raketlərin qarşılıqlı çıxarılması təklifinə baxmağa təhrik edirdi və bu addımı dünya ictimai rəyi nöqteyi-nəzərindən qiymətləndirirdi. «Əgər onun təklifi keçərsə biz bu məsələdə olduqca qibtəolunmaz vəziyyətdə qalacağıq. Birincisi, biz keçən il Türkiyədən raketləri çıxarmağa cəhd etmişdik, çünki hərbi nöqteyi-nəzərdən onlar orada lazımsızdır... İkincisi, istənilən dərrakəli insan kimi BMT-dəki hər bir insan üçün bu yetərincə ədalətli alver şəklində görünəcək». EKSKOM üzvlərinin əksəriyyətinin adından çıxış edən Makcorc Bandi söylədi ki, raketlərin qarşılıqlı çıxarılması Birləşmiş Ştatlara olan etimada zərər vuracaq. «Əgər biz NATO üzrə müttəfiqlərimizə və bizimlə saziş münasibətlərilə bağlı olduğumuz başqa ölkələrə bu alveri həyata keçirmək niyyəti haqqında desək əsl bəlaya düşərik». Lakin Kennedi böhranın inkişafı istiqamətində daha uzağa baxaraq Amerikanın müttəfiqlərinin hələ dərk etmədiyi dəhşətli perspektivi görürdü.

> *«Siz anlayırsınız ki, onların heç bir alternativi yoxdur. Və onlar deyəcəklər: «Ay Allah, biz Türkiyədəki raketlərdən imtina etmək istəmirik». Axı onlar anlamırlar ki, biz iki-üç gündən sonra Kubaya zərbə vura bilərik, bu da, çox güman ki, Sovetlərin Berlini tutmasına, yaxud Türkiyəyə zərbə vurulmasına gətirib çıxaracaq. Və o zaman onlar deyəcəklər: «Allah, bağışla, biz buna razı olmalıydıq».*

Bu an bu otaqda olanların hamısından çox Kennedi *inamsızlıq paranoyasının* şərtləndirdiyi bütün «soyuq müharibə» tələlərinin hesaba alınması əhval-ruhiyyəsindəydi. Böhran zamanı o anlayırdı ki, *hətta həddindən artıq yolayovuq görünmək riskiylə bağlı olan sülhsevər mövqe daha müdrik olur, nəinki özüylə fəlakət riski gətirən sərt inadcıllıq.*

Oktyabrın 27-də hökm sürən əsəbi şəraitdə EKSKOM-un bir neçə üzvü hələ də güc tətbiq etmək qərarında israrlıydı, Qərargah rəislərinin birləşmiş komitəsi isə Kubaya havadan 48 saat ərzində güclü zərbə endirilməsinə səy göstərirdi və bundan sonra da adaya basqın başlamalıydı. Böhranın birinci günü Kennedi, güman ki, heç bir gizli fikri olmadan «quzğun» avazın köklənmişdi, indi isə o, hərbi əməliyyatların gətirib çıxaracağı nəticələrin qarşısında geri çəkildi. O demişdi: «Mən düşünürəm ki, biz Türkiyə və Kubadan raketlərin qarşılıqlı çıxarılmasına qərar versək yaxşı olar, çünki onların həm Türkiyədə, həm də Kubada, hər bir yerdə ləğvinin hərbi üsulu çox təhlükəli və çox qanlı ola bilər».

Alınmış son məlumata görə, Kennedinin Amerikanın Kubaya zərbəsi hər iki tərəfdən nəzarətdən çıxmış münaqişənin gücləndirilməsinə gətirib çıxaracağı qarşısında qorxusu özünü tamamilə doğrultmuşdu. 1992-ci ilin yanvarında Havanadakı konfransda sovet iştirakçıları öz amerikalı həmkarlarına məlumat verdilər ki, Kubadakı Sovet komandanlığının ixtiyarında taktiki nüvə silahı vardı və ona həmin silahı Amerika basqınına qarşı istifadə etməyə icazə verilmişdi. Robert Maknamara bu açıqlamadan dəhşətə gələrək dedi: *«Bu, o deməkdir ki, əgər raketlər çıxarılmasaydı və Birləşmiş Ştatlar basqını həyata keçirsəydi, doxsan doqquz faiz əmin olmaq olardı ki, bunun ardınca nüvə müharibəsi başlanacaqdı».*

Nəhayət, EKSKOM Kennedini Türkiyədəki raketlərin məsələsini təxirə salmağa və Birləşmiş Ştatların basqın etməyəcəyi variantla Sovetlərin razı salınmasına nail olmağa inandıra bildi. Türkiyədəki raketlərin bir neçə aydan sonra sökülməsi barədəki *məxfi zəmanəti* Sovetlərə çatdırdıqdan sonra qorxmuş Xruşşov bu razılaşmanı bəyəndi.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KITABXANASINDAN

Beləliklə, Kennedi böhranın qızğın çağında nə qorxmaz qəhrəman, nə də dəlibaş cəngavərdi. Öz pərəstişkarlarının güman etdiyindən də yüksək dərəcədə qorxmuş Kennedi daha ehtiyatla və daha məsuliyyətlə, (bunu onun tənqidçiləri bilirlər) hərəkət etdi. Hansı bir andasa nüvə savaşının kabusu «rəşadətli» rəhbərliyin bütün boşluğunu və mənasızlığını ona aydınlaşdırdı. (Fəqət Kennedinin dəyişilməsi tam deyildi. Böhran sona çatandan sonra - onun Xruşşov üzərindəki qələbəsi kütləvi məftunluğun artan dalğalarına səbəb olanda prezident öz yaxın dostları qarşısında öyünərək demişdi: *«Mən onu axtaladım!»).*

Kennedi Sovet İttifaqı ilə gərginliyin azaldılması siyasətinə doğru yavaş-yavaş hərəkət etməsinə baxmayaraq, o, strateji silahlanmanın sürətini azaltmırdı. Prezident isə əvvəlki kimi öndərliyin qəhrəmanlıq obrazından həzz almaqda idi: «Biz öz ölkəmizdə, indiki nəslin yaşadığı dövrdə azadlıq qalasının keşikçiləri olmağa öz istəyimizlə deyil, tale tərəfindən seçilmişik».

* * *

# Reyqanın İnzibati İslahatları

Keçmiş SSRİ-də R. Reyqanın yeni iqtisadi siyasəti haqqında yaxşı bilirdilər. Onun mahiyyəti ölkə iqtisadiyyatının idarə edilməsində dövlətin rolunun ciddi məhdudlaşdırılması, belə idarəetmənin mərkəzsizləşdirilməsi və tənzimsizləşməsi, eləcə də vergi yükünün ixtisarı və dövlət xərclərinin azaldılması idi.

Amma cəmiyyətimizdə R.Reyqanın inzibati islahatları və ümumən Amerika hökumətinin inzibatçılığı barədə, yəni bizim ölçülərə görə ölkənin təkmilləşdirilmiş iri bürokratik aparatının nə cür idarə edilməsi haqqında təsəvvürlər azdır. Amerikanın hökumət məmurlarının və biznes menecerlərinin öz bürokratik maşınlarının səmərəliliyinin artırılması üzrə daimi səyləri barədəki məlumatla tanış olduqda istər-istəməz ispan sürrealisti Salvador Dalinin sözləri yada düşür: «Rəssam, kamillikdən çəkinmə, sən heç vaxt ona çata bilməyəcəksən»…

Prezident Ronald Reyqanın «Məşvərət»in oxucularına təqdim olunan qeydləri onun «Amerikansayağı həyat» («An American Life», Simon & Shuster, 1990) adlanan xatirələr kitabından götürülüb və bu gün Azərbaycan üçün aktual olan daha bir mövzuya – demokratiya şəraitində idarəetmənin səmərəliliyinin yüksəldilməsinə həsr olunub. Bu materialda ölkə prezidentinin öz bürokratik aparatının inzibati islahatları zamanı ölkənin biznesmenləri və qeyri-hökumət liderləri ilə nə dərəcədə uğurla əməkdaşlıq etməsi böyük maraq doğurur. Belə əməkdaşlıq nümunəsi, sözsüz ki, təqlid olunmağa layiqdir.

# Ronald Reyqan Dövlət İdarəçiliyinin İslahatı Haqqında

*Dövlət aparatında ixtisarlar haqqında*

“Daha çox iş görə bilmədiyimə bir qədər naümid olduğuma baxmayaraq biz, axır ki, hökumət aparatının böyüməsinin məhdudlaşdırılmasında inkişafa nail olduq. Konqresin və bürokratiyanın müqavimətinə və əhalinin davam edən artımına baxmayaraq, mənim Vaşinqtonda olduğum səkkiz il ərzində federal qurumların əməkdaşlarının sayı 5% ixtisar olunub, bəzi qurumlarda isə iki dəfə azalıb. Biz aparatın həcmini ümumən ixtisar etdiyimiz zaman orada milli azlıqların nümayəndələrinin sayı 27%, orada işləyən qadınların sayı isə 34% artıb”.

*Hökumət müəssisələrinin işinin səmərəliliyinin yüksəldilməsi üzrə ictimai komissiya haqqında*

“İxtisarların əksəriyyəti sadəcə hökumət müəssisələri işçilərinə özəl bölmədəki öz həmkarları kimi səmərəli işləmələri üçün vəsait və imkanların yaradılmasının nəticəsidir. Mən 1982-ci ildə “V.1. Qreys və K” şirkətinin baş inzibatçısı demokrat C.Piter Qreysdən izafi xərclərin ixtisarı və federal hökumət əməkdaşlarının işinin səmərəsinin yüksəldilməsi məqsədilə onların fəaliyyətinin öyrənilməsi üçün yüksək mənsəbli biznesmenlərdən ibarət komissiya yaratmağı xahiş etdim. Qreysin, “Hökumət xərclərinin özəl bölmə nümayəndələri tərəfindən qiymətləndirilməsi” kimi də tanınan komissiyası Kaliforniyada qubernator olduğum zaman ştat hökumətinin fəaliyyətinin səmərələşdirilməsi üçün yaratdığım komissiyanın nümunəsi üzrə formalaşdırılmışdı. Bu ideya Sakramentoda öz səmərəsini vermişdi, bəs Vaşinqtonda niyə də tətbiq edilməsin?

Komissiyanı böyük iş gözləyirdi. Qreysin qeyd etdiyi kimi, federal hökumət dünyanın ən iri enerji istehsalçısı, sığortaçı, bankir, xəstəxana sahibi, torpaq mülkiyyətçisi, icarəçi, əkin torpaqları sahibi, ağacsatan, taxıl təchizatçısı, anbar sahibi, gəmi sahibi və daşınmaların təşkilatçısıdır. O, federal hökumətin fəaliyyətinin bütün

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

aspektlərinin öyrənilməsi üçün bütün ölkədəki biznesmenlərdən iki min könüllü cəlb etdi və nəticədə 2.478 tövsiyənilik məruzə təqdim etdi. Bunlar yuxarıda sadalanan əməliyyatların hamısını daha səmərəli etməyə imkan yaradırdı. Federal hökumətin fəaliyyəti ilə maraqlananlar bunlarla tanış ola bilər.

Bu könüllülər aşkar etdilər ki, idarəetmə prosesində özəl sahibkarlığın çoxdan aradan qaldırdığı faktlar mövcuddur. Onların pis idarəetmə və boşuna xərclər haqqında təqdim etdiyi nümunələr o qədər çoxdur ki, bunlardan bir kitab yaratmaq olar. Onlardan yalnız bir neçəsini örnək göstərirəm:

- *Səhiyyə xətti üzrə müavinət almağa ərizənin tərtibi veteranların işi üzrə quruma 100-140 dollara, özəl sığorta şirkətlərində isə 3-6 dollara başa gəlirdi.*

- *Orduda əmək haqqının verilməsində xərclər orta hesabla adambaşına 4 dollar 20 sentə, özəl müəssisədə isə 1 dollara başa gəlirdi.*

- *Federal hökumət ölkədəki iqtisadi fəaliyyətin təxminən dörddə birinə məsul olmasına baxmayaraq, onda maliyyə əməliyyatların mərkəzləşdirilmiş idarəetmə sisteminin yoxluğu artıq xərclərə, qeyri-səmərəliliyə və daim törənən, sağ əlin nə etdiyini solun bilmədiyi problemlərə gətirib çıxarır. Hökumət müəssisələrində ödəmə cədvəllərinin 132 müxtəlif sistemi və 380 müxtəlif və ziddiyətli hesabat sistemi tətbiq olunurdu. Elə təkcə nəğd pul hərəkətinin tənzimlənməsi üçün müasir elektron sistemləri əvəzinə bu vasitələrin istifadə edilməsi vergiödəyənlərə ildə 2,3 milyard dollara başa gəlirdi. Bəzi qurumlarda biznes dünyasında çoxdan istifadə olunmayan karton çeklər əvvəlki kimi qalırdı.*

- *Federal hökumətin sərəncamındakı 17 min kompüterin yarısı o qədər köhnəlmişdi ki, istehsalçı şirkətlər onların təmirindən imtina edirdilər. Yeni kompüterlərin alınması prosesi orta hesabla iki il çəkirdi ki, onların tamamilə köhnəlməsinə gətirib çıxarırdı.*

- *Alışlar üzrə 80 min təlimat səhifəsinin mövcudluğuna və hər il bunlara daha 20 səhifənin əlavə olunmasına baxmayaraq, federal qulluqçularda hökumət üçün nəyi isə daha aşağı qiymətlə almaq, yaxud öz vəzifələrini ən az vəsaitlərlə icra etmək üçün çalışmağa heç bir stimul yoxdu. Federal hökumət sistemində az məsrəflərlə böyük səmərəyə nail olmaq üçün heç bir həvəsləndirmə sadəcə mövcud deyildi.*

- *Federal qulluqçunun maaş səviyyəsi özəl bölmədəki eyni işlə məşğul olan qulluqçununkundan yuxarı deyildisə də onlara verilən əlavə ödənişlər özəl bölmədəki həmkarlarından 76% çox idi.*

- *Hökumət qulluqçularının təqaüdü özəl bölmədə eyni vəzifəni icra edənlərdən iki dəfə yüksəkdi.*

- *Hökumət proqramlarında dələduzluq və israfçılıq genişlənirdi. Təkcə elə ərzaq kuponları proqramında belə xərclər ildə ən azı milyard dollar təşkil edirdi. Bu, orta gəlir səviyyəli 450.857 ailənin gəlir vergisinə bərabər məbləğdir. Aşkar oldu ki, sosial təminat təşkilatı 1980-ci ildən 1982-ci ilə qədər səhvən 14,6 milyard dollar ödəyib".*

*Biz komissiyanın 2478 tövsiyəsindən yalnız 800-ünü həyata keçirdik və onlarla milyarda qənaət etdik*

"Biz Qreys komissiyasının tərtib etdiyi 2.478 tövsiyədən yalnız 800-ünü həyata keçirə bildik. Bu, vergiödəyənlərə onlarla milyarda qənaət imkanı verdi və defisitin daha iri artımının qarşısını aldı. Biz, məsələn, bu (və digər) tövsiyələrə əsaslanaraq bütünlüklə gərəksiz 75 federal mətbəəni (eləcə də, aralarında "Yumurtanı necə almalı" kimi "bestseller" olan hökumət nəşrlərinin yarısını) ləğv etdik. Biz bəzi qurumlarda nəğd pul hərəkətinin tənzimlənməsi sistemini ildə üç trilyon həcmində tətbiq edərək vergiödəyənlərə əlavə gəlir faizi şəklində milyardlarla dollar qazandıq. Uçot sistemlərinin sayı 380-dən 250-yə salındı. Müasir inzibati üsulların yeridilməsi sayəsində bürokratik aparat ixtisar olunduğu zaman sığorta şəhadətnaməsinin alınması müddəti qırx doqquz gündən on günə azaldıldı, pasportu 43 gün əvəzinə on günə, ixrac lisenziyasını isə yetmiş beş gün əvəzinə on yeddi günə almaq mümkün oldu. Rəqabətlilik əsasında təqdim olunan federal sazişlərin sayı 40%-dən 58%-ə qalxdı. "Federal recister"də gündəlik nəşr olunan yeni qayda və təlimatların sayı 43%, yəni gündə orta hesabla 149 səhifə ixtisar olundu. Bizim hakimiyyət dövründə hökumətin nəşr etdiyi təlimatların orta sayı əvvəlki hökumətin buraxdığıyla müqayisədə ümumiyyətlə 41% azaldı".

"Biz Vaşinqtonda bütün hökumət proqramlarında artıq xərclər və dələduzluqla mübarizə etməyə çalışırdıq. Mən bəzi belə proqramları federal hökumətə nisbətən ştat rəhbərliyinin və yerli orqanlarının daha uğurla planlaşdıracağını və nəzarət edəcəyini düşündüyümə görə onları ləğv etmək istəyirdim. Mən həmişə israr etmişəm ki, milliyyətə, dinə, yaxud insan dərisinin rənginə əsaslanan kvotalar mənəviyyatsızlıqdır. Mənim bu siyasətimə görə bir çox qaradərili liderlər söyləyirdilər ki, mən fanatik deyiləmsə də, ən azı zəncilərin və digər milli azlıqların ümidlərinə rəğbətlə yanaşmıram.

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

Amma tarixin göstərdiyi kimi, nə o, nə də bu həqiqətə uyğun deyildir. Mənim işə düzələn zaman, təhsildə və başqa sahələrdə kvotaların əleyhinə olmağım həqiqətdir. Mən belə hesab edirəm ki, kvotalar ağların və ya rənglilərin, kişilərin və ya qadınların, kimin xeyrinə olursa-olsun ayrı-seçkiliyin daha bir növündən başqa bir şey deyildir. Amma bizim üsuli-idarə əhalinin vətəndaş haqlarının müdafiəsi üzrə bizdən əvvəlki hakimiyyətlərdən bəlkə də çox çıxış edib. Mənim prezidentlik etdiyim səkkiz ildə vətəndaş haqlarına zəmanət verən qanunların maliyyələşdirilməsi üzrə xərclər səkkiz dəfə artdı. Biz qanunvericiliyin bu sahədəki inkişafı barədə təşəbbüslə çıxış etdik. Bu, satış, yaxud mənzil kirayəsi zamanı ayrı-seçkiliyi qadağan edən 1968-ci il qanununun sərtləşməsinə gətirib çıxardı. Buna uyğun olaraq, bizim iqtisadi siyasətimiz hər hansı irqi kateqoriyaya nisbətən qaradərili əhaliyə daha çox nemətlər bəxş edib. 80-ci illərdə zəncilərin ilə ağdərililərin orta gəliri arasındakı fərq mühüm dərəcədə azalıb: 82-ci və 88-ci illər arasındakı müddətdə zəncilər arasında məşğulluq 29% artıb və eyni zamanda gəliri 50.000 dollar və bundan yüksək olan zənci ailələrinin sayı 86% artıb. Bu dövr ərzində ölkədəki işçi qüvvəsinə 2,6 milyon zənci əlavə olunub, zəncilərin yüksək maaşlı vəzifələrdə məşğulluğu 40% sıçrayıb, onlar arasındakı işsizlik 20,2%-dən 10%-ə enib".

* * *

# Prezident və Parlament
## Hakimiyyətin Bölüşdürülməsi Sistemində

*Bəzən insanın könlündən eyni zamanda*
*həm Prezident, həm də Konqres olmaq istəyi keçir...*
ABŞ prezidenti Teodor Ruzvelt

Məlumdur ki, prezidentli respublikada dövlət başçısı öz islahatlarını parlamentin razılığı olmadan həyata keçirə bilməz. Ölkəmizdə bu prosesin hansı rəvanlıqla keçdiyini yaxşı təsəvvür edirik. Cəsarət edib demək istərdim ki, nəinki Milli Məclis, hətta əksər siyasi partiyaların və ictimai təşkilatların «qanunverici orqanları» liderlərinin yuxarıdan verdiyi qərarlar üzrə təxminən yekdilliklə səs verirlər.

Ciddi demokratik ənənələri olan ölkələrdə qanunvericilik prosesi o qədər rəvanlıqla getmir. Demokratik ölkə liderlərinin öz islahatlarının zəruriliyində parlament üzvlərini inandırmağa cəhd etdikləri zaman nə əzablar çəkdiyini, məsələn, Çörçillin məşhur: «Demokratiya dəhşətli bir şeydir, ancaq bəşər bundan daha yaxşı olanını hələ icad etməyib» ifadəsindən, yaxud ABŞ prezidenti T.Ruzveltin daha açıq: «Bəzən insanın könlündən eyni zamanda həm prezident və həm də Konqres olmaq istəyi keçir…» etirafından bilirik.

Qərbin demokratik ölkələrinin liderləri çox zaman qanunvericilik orqanlarında əksəriyyətin müxalifətə məxsus olması ilə qarşılaşırlar. Ancaq prezidentli respublika şəraitində parlamentin əksəriyyətinin ölkə liderinin partiyasına məxsus olduğu halda da parlament üzvləri partiyadaxili intizamı gözləməyə məcbur deyil və səsvermədə reqlamentə uyğun vicdanla iştirak edirlər.

Belə şəraitdə prezidentə güclü iradə, səbr və özünün doğruluğunu parlament üzvlərinə inandırmaq bacarığı gərəkdir, çünki əsl demokratları liderə lazım olan qanun layihəsinə səs verməyə məcbur etmək mümkün deyildir.

Biz bu materialda Amerika prezidentlərinin Konqreslə işin çətinlikləri barədə mülahizələrini, eləcə də özünün doğruluğuna hətta öz yaxın tərəfdarlarını necə inandırmaq barədə konkret məsləhətlərini təqdim edirik.

RİÇARD NİKSON

"Məsələn, prezidentin və onun kabinetindəki nazirlərin Konqresə nəvaziş göstərərək və onu tumarlayaraq bütün problemləri aradan qaldırmağa nail olacağını düşünmək səhvdir. Prezidentin Konqreslə elə barışmaz ziddiyyətləri ola bilər ki, onları nə telefon zəngiylə, nə şəxsi məktubla, nə nahara dəvətlə, nə də hətta Kennedi adına Mərkəzdəki tamaşaya biletlə həll etmək mümkün olmaz.

Prezident əksəriyyəti başqa partiyaya mənsub olan Konqresin dəstəyini yalnız iki halda ala bilər: birincisi, yardımdan imtina konqresmenlərin nüfuzunu endirə biləcəyi halda; ikincisi, kütlələr arasında nüfuzunun düşməsinə

HİKMƏT HACIZADƏNİN Arxiv 2025 KİTABXANASINDAN

baxmayaraq prezident Konqresi, mətbuatı və seçiciləri millətin xilasının onların qərarlarından asılı olduğuna inandıra bildiyi halda.

Prezident ölkəni idarə etdiyi zaman senator və konqresmenlərdən fədakarlıq tələb etməməlidir. Onun özü qeyri-populyar olanı populyar etmək üçün öz yüksək mövqeyindən istifadə etməlidir. Yalnız bu halda hər iki partiya onun siyasətini dəstəkləyəcək."

RONALD REYQAN

"Xoşbəxtlikdən, bizim partiya 1980-ci ildəki seçkilərdə senatda əksəriyyət qazandı. Ancaq mən bilirdim ki, Nümayəndələr Palatasında bizim demokratik əksəriyyətimiz vardır, o isə vergilərin azaldılması və hökumət aparatı rolunun məhdudlaşdırılmasına başqa nöqteyi-nəzərdən baxırdı."

CORC BUŞ

"Səsvermədə bir ümidsizlik anı olmuşdusa da bu, mənim qaradərililərin seçki dairələrindəki iflasım idi (qaradərili seçiciləri öz tərəfimizə cəlb etmək üçün göstərdiyimiz səylərə baxmayaraq). Hələ Linkolnun yaratdığı partiyanın qaradərililərin daha güclü dəstəyini qazanması 1966-cı ildə çox əhəmiyyətli görünürdü (80-ci illərdə də əvvəlki kimi əhəmiyyətlidir).

Yaşayış mənzilləri işi üzrə bərabər vətəndaş hüquqları haqqındakı layihə 1968-ci ilin aprelində Nümayəndələr Palatasına təqdim edilmişdi. O zaman ölkə (kiçik) Martin Lüter Kinqin qətli ilə bağlı ağır sarsıntı keçirirdi. Bu, mənim Konqresdə olduğum dörd il ərzində səs verdiyim ən ziddiyyətli qanun layihəsi idi. Mənim inzibati köməkçim seçki dairəmdən gələn məktubların sayı haqqında hər gün məlumat verirdi. Seçicilərimin mütləq əksəriyyəti qanun layihəsinin ƏLEYHİNƏ idi. Mən onun LEHİNƏ səs verdikdən sonra məktubların sayı daha da artdı və məzmunu kəskinləşdi. Hədələr yalnız mənə deyil, əməkdaşlara qarşı da yönəlmişdi… Bu, emosional problem idi. Onu seçicilərlə üzbəüz müzakirə etmək tələb olunurdu.

Səsvermədən bir həftə sonra mən seçki dairəmin qərb sektorunda təşkil edilən mitinqdə iştirak etmək üçün evimizə uçub gəldim. Zal çox izdihamlı idi. Təqdimatım zamanı eşidilən narazılıq və fit səslərindən görünürdü ki, zal çox təlatümlüdür.

Auditoriya bir qədər sakitləşdikdən sonra mən öz çıxışımda Edmund Berkin (ingilis siyasətçisi) azad cəmiyyətdə qanunvericinin funksiyalarına verdiyi tərifi təkrar etdim: «Sizin nümayəndəniz yalnız öz işiylə deyil, həm də öz mülahizəsiylə sizə borcludur. O, onu sizin rəyinizə qurban vermiş olarsa sizə xidmət etmək əvəzinə sizə xəyanət etmiş olar».

Mən onların yadına saldım ki, biz iclas etdiyimiz zaman qaradərili amerikalılar bizim azadlığımızı və həyat tərzimizi qorumaq üçün Vyetnamda döyüşürlər. Onlardan soruşdum ki, bizim, ağdərili amerikalıların istifadə etdiyi azadlıqdan Vyetnamdan qayıtmış qaradərili amerikalı veterana imtina edilməsi haqda nə düşünürlər. Fərqi yoxdur, zənci olsun, yaxud Latın Amerikalı ləhcəsində danışan, yalnız buna görə insanın üzünə qapı örtülməməlidir. Mən yekunlaşdıraraq dedim ki, bərabər mənzil hüququ haqqındakı qanun layihəsi ənənələr və diskriminasiya ilə lokauta (kütləvi məcburi tədbirlərə) məruz qalmış qaradərililərə və digər azlıqlara ümid verir.

Mən qurtardıqdan sonra sırabasıra sükuta qərq olmuş simaları nəzərdən keçirdim və təşəkkür etmək üçün üzümü sədrə çevirdim. Yalnız bu zaman yüksələn alqış səsləri eşidildi və bütün zal ümumən ayağa qalxanacan davam etdi. Bütün əvvəlki biabırçılıqdan əsər-əlamət qalmamışdı və mən özəlliklə nəyinsə baş verdiyini hiss etdim: bu, mitinq iştirakçılarının (hamısında olmasa da) beyinlərində və qəlblərində baş verən dönüş idi. Bu gün - iyirmi il keçəndən sonra mən vicdanla deyə bilərəm ki, bundan əvvəl və sonra ictimai həyatda keçirdiyim hisslərin heç biri o axşam evə qayıdanda keçirdiyim hisslə müqayisə oluna bilməz."

"Prezident (demokrat Conson) hətta öz partiyasının üzləri üzərində də nəzarəti itirirdi. Siyasi hadisələrin qəribə dönüşü baş verirdi. Kapitolidə və başqa yerlərdəki demokratlar öz prezidentlərinin Vyetnam siyasətinin kəskin tənqidçilərinə çevrilirdilər, eyni zamanda respublikaçıların əksəriyyəti isə onun mətin müdafiəçiləri olaraq qalırdı. İlk müddətə seçilən konqresmenlərin əksəriyyəti Vaşinqtona dahi ideyalarla gəlir, ölkənin xilas edilməsi üçün yeni qanunların verilməsinə və cəsarətli planların həyata keçirilməsinə hazırdır. Ancaq siz 435 qanunvericidən (senatorlar da nəzərə alınsa 535-dən) yalnız birisiniz və totem dirəyinin lap aşağı hissəsində yerləşirsiniz. Sizin seçiciləri xarici siyasət barəsində «Konqreşnl rekord»da verilən bir dəqiqəlik nitqdən daha çox onların təqaüd qəbzlərinin alınmasını ləngidən hörümçək torunu sizin necə uğurla açmağınız maraqlandırır.

CORC BUŞ
Konqresdə Davranışın Dörd Qaydası

“Nümayəndələr palatasının hər bir lideri azad qanunvericilik orqanında liderliyin dörd qaydasına əməl edib. **Birincisi**: Heç vaxt şəxsi hücumlardan istifadə etməyin. Başqa bir gündə, başqa bir problem üzrə əksinizə çevriləcək hər hansı bir sözü deməyin və hər hansı bir hərəkəti etməyin.

**İkincisi**: Öz «ev tapşırığı»nızı yerinə yetirin. Bilmədiyiniz şey haqqında danışdıqda siz lider ola bilməzsiniz. Harada olursa-olsun Cerri Fordun problemin mahiyyətini dərhal qavraması bacarığı barədə eşidəndə mən Konqresdə işlədiyim dörd il ərzində cari qanunvericiliyi Forddan (palatada respublikaçıların lideri olduğu zaman) daha yaxşı anlayan bir kəsə rast gəlmədiyimi qeyd edirdim.

**Üçüncüsü**: Amerikanın qanunvericilik prosesi (prezident ilə Konqres arasında) qarşılıqlı bəhrələnmək prinsipinə əsaslanır. Liderlik mövqeyinizdən qorxutmaq üçün deyil, qarşılıqlı razılıq əsasında inandırmaq üçün istifadə edin.

**Dördüncüsü**: Totem dirəyinin hətta ən aşağı hissəsində olan əməkdaşlarınızın ehtiyaclarına diqqətli olun.”

* * *

# Deputat Səs Verərkən Nəyə Əsaslanmalıdır

Millət vəkili parlamentdə neçə səs verməlidir? O, bilavasitə onu seçənlərin iradəsini ifadə etməli, yoxsa sağlam düşüncəyə, ümummilli, yaxud hətta ümumbəşəri maraqlara əsaslanmalıdır? ABŞ-ın 41-ci prezidenti Corc Buşun "Gələcəyə doğru"(1989) kitabından seçilmiş aşağıdakı parça bu sorğuya onun cavab variantıdır. Bu hissə (eləcə də bütövlükdə kitabın özü) seçicilərin səslərini toplamağı bu səslərin yiyələrinə hörmətlə qoşa qanad sayan siyasətçilər üçün maraqlı olacaq.

CORC BUŞ

“Səsvermədə qanqaraldıcı hal olmuşdusa da bu hamımızın qara seçiciləri cəlb etmək cəhdlərimizə rəğmən mənim qara seçki dairələrində əldən-ayaqdan düşməyim idi. 1966-cı ildə vacib idi ki (80-ci illərdə də keçmişdəki kimi vacibdir), hələ Linkoln vaxtında yaradılmış Respublikaçılar Partiyası qaraların daha güclü dəstəyini qazansın.
Mənzil işində bərabər vətəndaşlıq hüquqları haqqında qanun layihəsi təmsilçilər palatasına 1968-ci ilin aprelində - ölkə kiçik Martin Lüter Kinqin öldürülməsinin ciddi ağrılarını hələ yaşayarkən təqdim olunmuşdu. Bu, konqresdə olduğum dörd il boyunca səs verməli olduğum qanun layihələri içərisində ən ziddiyyətlisi idi. İnzibati köməkçim mənim dairəmdən alınan məktubların sayı haqqında hər gün məlumat verirdi. Seçicilərimin böyük əksəriyyəti qanun layihəsinin ƏLEYHİNƏ idi. Mən onun lehinə səs verəndən sonra məktublar xeyli artdı. Özü də, gözlər görməsin. Yalnız mənim deyil, cəmiyyətimin əleyhinə də hədə-qorxular bildirilirdi... Bu, seçicilərlə üzbəüz oturaraq müzakirə edilməli emosional problem idi .

Seçkilərdən bir həftə sonra mənim seçki dairəmin qərb bölümündə təşkil edilmiş mitinqdə iştirak etmək üçün evə uçdum. Zal ağzınacan dolmuşdu. Məni təqdim edərkən qalxan qəzəbli qışqırıqlar və fit göstərdi ki, içəri qaynar qazandır.

Auditoriya bir qədər sakitləşərkən çıxışımda Edmund Berkin (ingilis siyasətçisidir) azad cəmiyyətdə qanunvericinin vəzifələrinə dair müddəalarını təkrarladım. Berk yazırdı: "Sizin təmsilçiniz sizə yalnız öz işi ilə yox, eləcə də öz mühakiməsi ilə borcludur və o öz düşüncəsini sizin rəyinizə qurban verərsə sizə qulluq etmək əvəzinə sizi satmış olar."

Mən onlara xatırlatdım ki, biz iclas keçirərkən azadlığımızı və yaşayış tərzimizi qorumaq üçün qara amerikalılar Vyetnamda vuruşurdular. Biz ağ amerikalıların istifadə etdiyimiz azadlıqdan özünün necə məhrum edildiyini görmək üçün evinə dönən qara amerikalı Vyetnam veteranı haqqında onlar nə düşünürlər? Nə olursa olsun, ancaq İnsan yalnız və yalnız zənci olduğuna, yaxud Latın Amerikası ləhcəsində danışdığına görə üzünə çırpılan

qapının arxasında boynunu bükməməlidir. Mən belə yekunlaşdırdım ki, mənzilə bərabər hüquq haqqında qanun layihəsi ənənələrin və sıxışdırmaların nokauta uğratdığı qaralara və başqa azlıqlara ümid bəxş edir.

Mən qurtardım, sakitləşmiş insanların üzlərini sıra-sıra gözdən keçirdim və təşəkkür etmək üçün yığıncağın sədrinə tərəf çevrildim. Yalnız bu zaman çəpiklər çalındı, getdikcə gurlaşdı və ayağa qalxmış bütün zalın ümumi alqışına çevrildi. Başlanğıcda yaranmış xoşagəlməz nə vardısa hamısı aradan getdi və hiss etdim ki, nə isə əlamətdar bir şey baş verib - bu, mitinq iştirakçılarının (hamısında olmasa da) beyinlərində və ürəklərində yaranmış dönüş idi.

Bu gün iyirmi ildən artıq vaxt keçərkən mən səmimiyyətlə boynuma alıram ki, o axşam evə qayıdarkən yaşadığım hiss ictimai həyatımda ondan qabaq və sonra duyduğum heç nə ilə müqayisəyə gəlmir."

* * *

# Siyasətçi, Oxucular və Qəzetlər

Azərbaycanlı oxucuların Amerikanın məşhur siyasətçilərinin şəxsi təcrübəsi ilə tanışlığını davam etdiririk. Sözsüz ki, belə təcrübə dövlət idarəçiliyi haqqındakı elmin mühüm hissəsidir. Biz bu materialda ABŞ prezidenti Riçard Niksonun xatirələr kitabından («Arenada») Public Relations - ictimaiyyətlə, xüsusən də mətbuat nümayəndələrilə əlaqələr sənəti haqqında ayrı-ayrı hissələri veririk.

Bu sənət mahiyyəti yalnız cəmiyyətin razılığı ilə idarə etmək olan demokratik idarəetmənin təməl daşıdır. Belə fikirləşirəm ki, demokratik cəmiyyət öndərlərinin qəzetlərin və kütlələrin rəğbətini qazanmaq üçün hansı fənd və kələklərdən istifadə etdiklərini bilmək bizim nəinki siyasətçilərimiz, hətta hər bir vətəndaşımız üçün maraqlı olardı.

RİÇARD NİKSON İCTİMAİYYƏTLƏ ƏLAQƏLƏR (public relations) HAQQINDA

**Qəzetlər**

"…(Deyirlər ki,) guya mən televiziyanı fəlakət hesab edirəm. …Xeyr, o, ucuz, cəlbedici, bəzən isə hətta layiqli əyləncə mənbəyi ola bilər.

…Televiziyada üstünlük daxili məzmuna deyil, formaya, xarici görünüşə verilir. O, köhnəlmiş müsahibə sənəti üçün zərərlidir. Amma o ən çox təsiri mətbuata göstərib. Əvvəllər yalnız iki, yaxud üç qəzet nəşr edə bilən bəzi şəhərlər indi çətinliklə bir qəzeti nəşr edə bilirlər (90-cı illərdə Nyu-Yorkda cəmi üç qəzet buraxılırdı). Mətbuatın daimi tənqidçiləri hansı səbəbdən qəzetlərin süqutuna yas tuturlar. Ona görə ki, cəmiyyətdəki jurnalist nəzərlərinin müxtəlifliyi mətbuatın təmiz, vicdanlı saxlanmasına imkan verir.

Mənim Ağ Evdə gördüyüm yaxşı tədbirlərdən biri də YENİLİKLƏRİN GÜNDƏLİK ŞƏRHİ olub. Çoxsaylı qəzetləri nəzərdən keçirməyə alışan və vaxtı az olan məmur eyni bir məlumatın müxtəlif jurnalistlərin yazılarında oxunmasına çox vaxt sərf edər. Yalnız federal qurumlarla həmrəylik əks etdirən Vaşinqton və Nyu-York qəzetlərinin, yaxud mədəniyyət xəbərlərinin sensasiyalı, lakin yersiz qatışığını, siyasətin və daxili yeniliklərin daha çox səthi və birtərəfli şərhini verən jurnalların oxunması ilə məhdudlaşmaq da eləcə səhv fikirdir. Prezident öz aparatından nüfuzlu bir əməkdaşı (ölkəmizin bütün guşələrindən, eləcə də dünyanın bütün ölkələrindən gələn məlumatlara əsaslanaraq) hər hansı bir məsələ üzrə məqalələrin, şərhlərin və televiziya məlumatlarının hərtərəfli ümumiləşdirilmiş şərhi üçün təyin etməlidir. Məsələn, Amerikanın siyasi həyatı barədə ən yaxşı məqalələrin bəziləri Londonun «Ekonomist» qəzetində nəşr edilir. Mən yeni məlumatların şərhində «Neşnl revü»dən tutmuş «Nyu ripablik»ə qədər bütün nöqteyi-nəzərlərin əks olunmasını çox vacib sayırdım. Tənqidçilərimin barəmdə yazdıqları xoşuma gəlməyə də bilərdi, amma mən xalqın nəyi oxuduğunu bilməliydim.

Əksəriyyətin rəyi ilə yanaşı, müzakirəyə çıxarılan əks rəyləri də bilmək faydalıdır. Beləliklə də, hər hansı bir qərarın çıxarılmasını aparat məmurunun (ona hansı dərəcədə etibar etməyinizdən asılı olmayaraq) öhdəsinə buraxmadan siz özünüz bu işi müstəqil görə bilərsiniz. Oxşar olaraq, aparatın böyük əməkdaşı siyasi sənədi müzakirəyə təqdim edərkən mən ondan bu sənəd üzərində işləyənlərin adlarının çəkməsini tələb edirdim. Kiçik əməkdaşların mənəvi ruhunun yüksəldilməsi üçün görülən işə görə prezidentin minnətdarlıq məktubundan əhəmiyyətli heç nə ola bilməz.

**Jurnalistlər**

Həmişə olmasa da ümumilikdə mətbuat müxbirləri televiziyadakı həmkarlarından daha ağıllı və dərin fikirlidir. Müxbirlərə nisbətən fotoqraflar mühafizəkarlara daha çox rəğbət bəsləməyə meyllidirlər.

Qəzet sahiblərinin müxbirlərə səmərəli nəzarət etdiyi zamanlar çoxdan ötüb. Çox zaman namizəd qəzet məqaləsində təriflənir, yeniliklər bölməsində isə pislənir. Bu isə əksər qəzetlərə şizofrenik görkəmi verir…

Digər tərəfdən isə mən aşkar etmişəm ki, prezident və ya vitse-prezident xaricə səfər etdiyi zaman onu müşayiət edən müxbirlər adətən doğruçudurlar və ona yardım göstərirlər.

Jurnalist korpusunun üzvünə başlıca məsələdə yanıldığının isbat edilməsi ona ən böyük pislikdir.

Mətbuatda özünüzə əziz-xələflər yaratmayın. Bunun üstünlüyü azmüddətli olur. Amma uzunmüddətli perspektivdə ziyanı xeyrindən çoxdur.

Yaxşı müxbir açıq-aşkar nəvazişləri sevmir. Heç bir müxbir sizin keçən həftə onu nahara qonaq etdiyinizə görə mənfi məqaləni gizlətməyəcək.

Jurnalistlərin əksəriyyəti solçu olduğuna görə fərz etmək olar ki, respublikaçılar onları demokratlardan çox tənqid edəcəklər. Amma yaxşı məqaləyə meyllilik ideologiyadan daha əhəmiyyətlidir.

Siyasətçi hesab etməməlidir ki, nə qədər çox mətbuat konfransı keçirsə bir o qədər yaxşı olar. Vacibdir ki, həddən artıq görünməklə özünü ucuzlaşdırmayasan.

…Son söz həmişə mətbuata məxsusdur.

Ölkəyə mətbuatsız, birbaşa müraciət prezidentin əsas silahıdır.

Ehtimal ki, mənə mətbuata aid ən yaxşı məsləhəti indi İrlandiyada səfir olan dostum Dik Mur verib. O, tez-tez deyərdi: «Kiçik yalanı axtarın». Əgər kimsə səhv buraxarsa, yaxud ədalətsiz çıxış edərsə bunu gözdən qaçırmadığınızı ona anladın. Əgər siz müxbirə, yaxud redaktora buraxdığı səhvə görə öz narazılığınızı bildirsəniz onlar gələn dəfə daha diqqətli olar. Əgər bu edilməsə onlar getdikcə azğınlaşar və çox zaman səhvləri o vaxta qədər təkrar edib dərinləşdirərlər ki, onları düzəltmək artıq mümkün olmaz.

**Söhbəti Necə Aparmalı**

1959-cu ildə Moskvaya yola düşməmişdən əvvəl mən Xruşşovla rəftarım barədə bir neçə adamdan məsləhət istədim. Belə söhbətlərdən üçü xüsusilə yadımda qalıb.

Mən xəstəxanada Con Foster Dallasla görüşdüm. O, xərçəng xəstəliyindən öləcəkdi. Elm adamlarının əksəriyyətinin qəzet və jurnallarda mənim başlıca vəzifəm (mən Xruşşovu inandırmalıydım ki, ABŞ sülh tərəfdarıdır) haqqında yazdıqlarını ona söylədim. Dallas bununla razılaşmadı. O söylədi: «Siz onu inandırmalısınız ki, o, müharibəni uda bilməyəcək».

Güman ki, mən ən mühüm məsləhəti Uolter Lipmandan aldım. O, mətbuatda mənim ən ədalətli tənqidçilərimdən biriydi. O söylədi ki, *ən vacibi mənim görüşə hazır olmağımdır*. Əks halda Xruşşov adi kommunist bəlağətiylə məni üstələyəcəkdir. O, məni əmin edirdi ki, *söhbəti konkret aparmalıyam, müzakirəsini arzuladığım sualları qabaqcadan hazırlamalıyam və Xruşşovun haqqında söhbət etmək istədiyi məsələlərdən onun fikrini yayındırmalıyam*.

LİPMAN QAYDASI əvəzedilməzdir. Hazırlıqsız söhbət bir mövzunun üzərindən digərinə keçəcək, qeyri-müəyyən olacaq və ondan, əhəmiyyətli şəxslə görüş hissindən savayı heç nə alınmayacaqdır.

İKİNCİ QAYDA – söhbət qısa olmalıdır. Əgər kimsə mühüm vəzifəli şəxslə üç saatlıq görüşü barədə mənim qarşımda öyünürsə, əminəm ki, həmin söhbət nizamsız olub.

ÜÇÜNCÜ QAYDA – söhbət mümkün olduqca ikilikdə aparılmalıdır. Söhbətin keyfiyyəti özünüzlə apardığınız hər bir əlavə adamın sayı qədər aşağı enir.

DAHA BİR YAXŞI QAYDA – söhbət ərzində yazılı qeydlər edilməməlidir. Bunun nəticəsində söhbətin səmimiliyi itir. Danışıqlarda yalnız təfərrüatların müzakirəsi zamanı rəhbər şəxs yazılı qeydlər edə bilər. Mən rəsmi vəzifə tutmayandan əvvəl, həmişə bir ümumi qaydaya riayət etmişəm: xarici rəhbər şəxslə görüşə köməkçi, yaxud hətta tərcüməçi aparılmamalıdır.

DİGƏR BİR QAYDA – əgər siz cavab dəvəti almaq istəyirsinizsə heç vaxt söhbətin məxfiliyini pozmamalısınız.

Çarlz Snou Çörçillin müsahibləri ilə Lloyd Corcun müsahibləri arasındakı fərqi özünəməxsus tərzdə şərh edir. Əgər söhbət hava şarından gedərsə Çörçill bir saat hava şarları barədə hər şeyi söyləməklə sizi heyran edəcəkdir. Digər tərəfdən, Lloyd Corc isə sizdən hava şarları barəsində bildiklərinizi soruşacaq və bir saat sizə qulaq asacaqdır. Amma Çörçillin müsahibə sənəti barədə dərin anlamları vardı. O, «Dahi müasirlər» kitabında Balfuru parlaq qiymətləndirərək yazırdı: «Onunla görüşənlərin hamısı ondan ayrılandan sonra hiss edirdilər ki, o, özünü ən yaxşı tərəfdən göstərib». Hər hansı adamın özünü əhəmiyyətli sayması üçün ən yaxşı üsul onun rəyinin soruşulması və sonra isə onun cavabının dinlənilməsidir…Amma sizi qonaq çağırıblarsa evin sahibinə söhbəti aparmağa imkan vermək lazımdır.

**Çıxışlar**

…Yazıdan istifadə etmədən çıxış etmək o qədər də çətin deyil. Yox, əgər siz konspekt, yazılı mətn və ya qeydlərə arxalanırsızsa hafizənizin imkanlarının və «yazısız» danışmaq qabiliyyətinizin kəskin azaldığının şahidi olacaqsınız. …Mən bəzən nitqimi tam yazar və oxuyardım. Bəzənsə təfsilatlı qeydlərdən istifadə edər və hətta nitqimi əzbərləyərdim. Amma auditoriya bir çox hallarda məni alqışlamazdı. Bir axşam çox mühüm bir görüşdə mən yazılı mətni kənara qoyub «yazısız» danışdım. Auditoriya buna böyük şövqlə cavab verdi.

Fikirləri yadda saxlamaq üçün məşq edin. Nitqinizi əvvəlcədən sahmanlayın, tezislərin yazılı formada şərhi daha məqsədəuyğundur. Nitq zamanı fikirləriniz beyninizdə artıq həkk olunduğu üçün sözlər özü-özünə söylənəcək.

İndiki zamanda prezident xarici siyasət üzrə problemlərin geniş dairəsini əhatə edən nitq söyləyə bilər, amma televiziyanın axşam yeniliklərində yalnız tarixləri səhv saldıqda, yaxud burnunu qaşıdıqda göstərilə bilər.

Siyasi nitqlə çıxış etməyin ən yaxşı üsulu siyasətdən qətiyyən danışmamaqdır.

Bir qayda olaraq, nitqin mətnini hazırlayan sözləri çıxış edəndən daha yaxşı ifadə edir. Amma çox zaman belələri intellektual olduğu üçün danışıq dilindən deyil, ədəbi ifadələrdən istifadə edirlər. Bu halda belə çıxış cansız, qeyri-səmimi və ağır səslənəcək. *O (spiçrayter), əsas fikri, başlıca məqamları seçməlidir və əsas tezisləri, ayrıca ifadələri yazmalıdır*. Birinci layihənin hazırlanmasını nitqləri tərtib edənlərə tapşırmaq olar. Sonra isə mən təklif edərdim ki, özünüzün çıxış variantını maqnitofonda yazasınız.

Yazılı mətnsiz çıxış etmək niyyətindəsinizsə planı bir neçə dəfə oxuyun və əsas cümlələri özünüz üçün yazın. Əsas planı bilməsəniz fikrin gedişatdan yayınması, çıxış prosesində isə dinləyicilərin diqqətinin itirilməsi qorxusu ola bilər.

Auditoriyaya maksimum təsir göstərmək üçün diqqətinizi əsasən çıxışın giriş hissəsində, bir və ya bir neçə məzəli lətifədə və çıxışın son hissəsində cəmləşdirin.

Çıxışdan əvvəl iştirakçıların əlini sıxın. Təbrik prosesində eləcə də əvvəlki natiqlərin və ya çıxış edənlərin ünvanına bir neçə xoş söz demək, qonaq qəbul edən təşkilatı tərifləmək və bəlkə də auditoriyanın razılaşdığı şəxsi maraqlarınız barədə bir neçə söz demək olar.

Yaxşı lətifə bütün çıxışa üçün uğur gətirə bilər.

Kütləvi çıxışın ən vacib hissəsi onun sonluğudur. Bəzən mən onu ilk növbədə yazıram. Amma, bir qayda kimi, yaxşı olar ki, iş prosesində ona növbə çatsın və sonra da o, tələsmədən yazılsın.

Belə verilişlərin baxılmasında xüsusi səbir göstərməyən çoxsaylı tamaşaçıların televizorlar qarşısında yığıldığı indiki zamanda prezidentin çıxışları 20 dəqiqədən çox olmamalıdır. Yalnız ölkədəki vəziyyət haqqındakı çıxışlara istisna olunur. Bu isə çox halda nazirlərin xoşladığı ideyaların yalnız çək-çevirindən ibarət olur.

Kütləvi nitq televiziyada söylənilirsə natiq yadda saxlamalıdır ki, o, bir neçə yüz, hətta bir neçə min insan qarşısında deyil, milyonlarla teletamaşaçı qarşısında çıxış edir. O, həmişə yadda saxlamalıdır ki, televiziya

Satış üçün nəzərdə tutulmayıb

söhbətin aparılması vasitəsidir. Axı siz kiminləsə onun evində qışqıra-qışqıra söhbət etmirsiniz. Televizordan tamaşaçıların üstünə qışqıranda da onlarda heç bir təəssürat oyatmırsınız.

…İndiki zamanda TV vasitəsilə çıxış edən rəsmi şəxsin öz nitqlərini sözbəsöz təkrarlaması olduqca çətindir. Əks halda müxbirlər həmin nitqi efirə buraxmazlar. Amma əsas fikir onlarda təkrarlanmalıdır. İdeya yalnız təkrarlandıqda kütləvi auditoriyaya çata bilər.

Nəhayət, sonuncu…Deməyə sözünüz yoxdursa heç danışmayın.

**Niksonun «Susan Əksəriyyət» Nitqi**

1969-cu ilin oktyabrında yüz minlərlə nümayişçi Vyetnamdakı müharibəyə etiraz marşı ilə Vaşinqtona gəlmişdi… Nəyin bahasına varsa sülh uğrunda çıxış edən senator və konqresmenlər tələb edirdilər ki, mən bizim əsirlərin qaytarılmasının əvəzində Amerika qoşunlarını oradan çıxarım. Hətta mənim siyasətçi dostlarımdan bəziləri də onları dəstəkləyirdi…

Mən televiziyadakı çıxışımı noyabrın 3-nə planlaşdırmışdım. Anlayırdım ki, bu çıxış mənim bütün prezidentlik dövründə ən əhəmiyyətli nitqim olacaqdır. Eləcə də anlayırdım ki, nitqimin sonluğu onun uğurunu, yaxud uğursuzluğunu müəyyənləşdirəcək. Çıxışımdan qabaq Kemp-Deviddəki otağımda gecə saat ikidə yalqız oturduğum zaman, nəhayət, ağlıma bir fikir gəldi. Mən əlimlə mətnə aşağıdakını əlavə etdim:

*«Mən sülhə nail olmağın planını seçmişəm. Güman edirəm ki, o, uğurlu olacaqdır. Əgər o, uğurlu olarsa, tənqidçilərin indiki bütün hücumları əhəmiyyətsiz olacaqdır. Əgər uğursuz olarsa, mənim bu gün söylədiklərim əhəmiyyətsiz olacaqdır. Buna görə də bu gün sizə, mənim böyük amerikalı həmvətənlərimin susan əksəriyyətinə müraciət edərək sizin yardımınızı diləyirəm. Gəlin sülh naminə birləşək. Gəlin eləcə də məğlubiyyət əleyhinə birləşək. Gəlin eləcə də anlayaq ki, Şimali Vyetnam Birləşmiş Ştatları məğlub edə, yaxud alçalda bilməz. Bunu yalnız amerikalılar özləri edə bilərlər»...*

O axşam prezidenti dinləmək istəyən heç vaxt görünməmiş çoxsaylı auditoriya televizorlar qarşısında oturmuşdu. Teleqram, məktub və telefon zənglərinin axını bitmək bilmirdi. Mənim reytinqim birdən-birə on bir bənd yüksəldi. Bu, Gellap İnstitutunun keçirdiyi ictimai rəy sorğusu tarixində prezident çıxışının törətdiyi ən böyük sıçrayış idi.

«Susan əksəriyyət» haqqındakı nitqim mənim bütün ümidlərimi doğrultdu. «Göyərçin» senator və konqresmenlər pencəklərinin yaxasına üzərində Amerikanın milli bayrağı olan nişanları taxdığı zaman bütün mümkün şübhələrim yoxa çıxdı. Nəhayət ki, ölkədəki susan əksəriyyət səsini çıxardı, Konqresdə yeni əksəriyyət yaratdı və bizim Vyetnam siyasətimizin uğuruna şans verdi."

* * *

# Mühafizəkarları da Dinləyək

Bu gün biz «islahatlar» dedikdə təxminən bütün hallarda «liberal islahatlar»ı nəzərdə tuturuq. Bu liberal islahatlar barədə məlumatı bizə, əlbəttə ki, birinci növbədə Qərb liberalları çatdırır. Onların dünyagörüşləri, əsərləri, həyat tərzi və əməlləri bizdə Qərb cəmiyyətinin yeganə əsası kimi geniş işıqlandırılır, kütləvi nitqlərdə iqtibas edilir. Qərb adlandırdığımız bütün anlamların sırasında daha bir mühüm əsas mövcuddur ki, bu da mühafizəkarlıqdır.

Niyə bizdə Qərb mühafizəkarlığından belə az danışılması aydındır. Yalnız sovet dövründə deyil, hətta bizim çoxəsrlik tariximiz boyu Şərq mühafizəkarlığına məruz qaldığımız üçün biz Qərbdən olan mühafizəkarların məsləhətlərini eşitməyə meylli deyilik.

Ancaq işlərin belə vəziyyəti Qərb adamının və ümumən demokratik cəmiyyətin təhrif olunmuş qavrayışına gətirib çıxarır, çünki hakimiyyət orqanlarına keçirilən seçkilərin nəticələrinə nəzər saldıqda bu cəmiyyətin öz liberal və mühafizəkar üstünlüklərini müntəzəm olaraq bir-biriylə əvəzlədiyini görmək olar.

Məşhur mühafizəkar siyasətçi olan ABŞ prezidenti Riçard Niksonun xatirələrində Qərb mühafizəkarlarının düşüncə tərzini və istəklərini aydın görmək olar. Çoxları onu Amerikanın mühafizəkar fəlsəfə və siyasətinin təcəssümü və daşıyıcısı sayır. Xoşagəlməz Uotergeyt qalmaqalından (pozuntularla bağlı qalmaqalla bağlı istefa verməyə məcbur oldu) bizə tanış olan Nikson SSRİ və Çinlə qarşılıqlı əlaqələrin tarixi mərhələsinə təkan verən səmərəli prezident sayılırdı (1968-1974) və yetərincə kütləvi rəğbət qazanmışdı. Bu sonuncu, əlamətdar faktdır, çünki respublikaçı Nikson demokratik partiyadan olan Kennedi və Conson kimi nüfuzlu liberalların onillik hakimiyyətindən sonra prezidentlik mənsəbinə gəlmişdi.

Mətbuatda, televiziyada və akademik dairələrdə daim üstün olan amerikalı liberallar Niksonun iflasından sonra onun şəxsiyyətini indi dünya demokratlarının hər birinin öz nizəsini sancacağı daimi hədəfə çeviriblər. Ancaq bütün bunlar Azərbaycanın «…bir dəfə də Yezidə ağlayaq» məşhur atalar sözünə ziddir. Mən Nikson fəlsəfəsinin, yaxud təcrübəsinin ardıcılı olmağa çağırmıram, amma oxucunu bunlarla tanış etmək faydalı olardı.

## NİKSON ÖZ MƏNSƏBİ VƏ SİYASİ FƏLSƏFƏSİ HAQQINDA

### Təhsil – Mühafizəkarlıq və Liberalizm

"Mən 60-cı illərdəki «mütərəqqi» islahatlar dalğasının tədris proqramını köklü dəyişdiyi və tədrisin keyfiyyətini ciddi surətdə korladığı dövrdən qabaq təhsil aldığıma görə bəxtim gətirmişdi.

Aldığım təhsil barədə tənqidçilər deyə bilər ki, o, mənə hüquq biliklərindən savayı heç nə verməyib və hər bir insanın gündəlik qarşılaşdığı həyati problemlərə dair faydalı məlumatlarla məni təchiz etməyib. Ancaq, bax, elə bu, təhsilin məqsədi deyildir. Məktəb əqli nizamlamalı və möhkəmləndirməlidir, gəncə düşünməyi və problemləri həll etməyi öyrətməlidir ki, o, dünyanın onun doğulduğu gündən yaranmadığını dərk etsin.

60-cı illərdə məktəblər sosial və mədəni tənəzzülə uğradı. Kolleclərdə tədris prosesinə aid qərarlar nümayişçi tələbələrin öhdəsinə buraxılmışdı. Onlarsa nəyi və necə öyrənməli olduqlarını müəllim və inzibatçılardan daha yaxşı bildiklərini düşünürdülər. Görünür ki, orta məktəbdə müəllim və şagirdlər vaxtlarını öz tədris və təhsillərindən daha çox hansı yerdə siqaret çəkmək, saçları hansı uzunluqda saxlamaq və başqa əhəmiyyətsiz şeylər barədə mübahisələrə sərf edirdilər.

60-cı illərədək təhsilin vəzifəsi şagirdlərə cəmiyyət üçün faydalı üzvlər olmaqda yardım etməkdi. Yaxşı məktəb təlimi onlara ailənin təmin edilməsində və işdə məsuliyyəti öz üzərlərinə götürməkdə yardımçı olurdu. Ancaq sonra - 60-cı illərdə «iş və ailə» haqqında fikrin özü hədsiz bayağı və hətta qüsurlu sayılırdı. Təhsilin vəzifəsi şagirdlərin ideoloq, yaxud nəzəriyyəçinin beynində mövcud olan hansısa qeyri-real dünyanın mədəni və siyasi cəhətdən mükəmməl vətəndaşlarına çevrilməsi oldu.

…Yarış təhlükəli sayılırdı. Buna görə də əksər kolleclərdə qiymətləndirmə sistemi dəyişdirildi indi yalnız iki qiymət vardı: kafi və qeyri-kafi. İdmanın yarış növlərinə şübhəli münasibət yarandı. Adi tipli imtahanlar irqçi, cinsi əlamətlərə görə hüquq pozuntuları törədən elan edilmişdi…

Şagirdlərə idmanın və məşğələlərin qeyri-yarış növlərini zorla aşılamaqla onları kollecdə, yaxud universitetdə sonrakı tədrisdən, gələcəkdə işə düzəlməkdən və mahiyyəti müntəzəm təhsil olan gələcək həyatın özünə lazımi hazırlıqdan məhrum edirdilər.

Məktəblər və kolleclər gənclərin tədris ocağından gənclik məbədinə çevrildikdən sonra Amerikanın təhsil sisteminin rəhbərləri müdriklik məsuliyyətindən imtina etdilər. Müdriklik isə gənclərə nisbətən daha çox oxumuş, öyrənmiş, dünya görmüş, nailiyyət əldə etmiş insanlara məxsusdur. 60-70-ci illərdə müəllimlər gəncləri təhqir etməkdən çəkinərək onlara nəsihət vermir, onları dua etməyə məcbur və tənbeh etmir, yaxud öz səlahiyyətlərini başqa üsulla bürüzə vermirdilər. Onlar bunun əvəzində *öz tələbələrini anlamaq, onlarla dostlaşmaq üçün bütün qüvvələriylə çalışırdılar, ancaq tələbəyə dostdan əvvəl müəllim lazımdır.*

### *Həm qələbələr, həm də məğlubiyyətlər…*

«Hadisələri sadəcə qeyd edənlər və onları tənqid edənlər hörmətə layiq deyildir. Üz-gözü qan-tər içində meydana çıxıb var qüvvəsiylə çalışan, bir neçə dəfə səhv edən, yanılan (hər bir işdə səhvlər olur) şəxs hörmətə layiqdir. Fəaliyyət göstərən, hərəkət edən, əsl təşəbbüsün nə olduğunu bilən, ləyaqətli işə özünü fəda edən, əgər bəxti gətirərsə qələbənin ləzzətini dadan, bəxti gətirməzsə fədakarcasına məğlub olan şəxs hörmətə layiqdir. Və onun ruhu qələbənin və məğlubiyyətin nə olduğunu bilməyənlərin soyuq, laqeyd ruhları ilə heç vaxt bir sırada durmaz» *(Niksonun xatirələrinə Teodor Ruzveltin giriş iqtibası).*

Yalnız mənsəb xatirinə siyasəti seçənlər əyri yola qədəm qoyurlar. Onlar müqəddəs Akvinalı Foma bu sözlərini daim yadda saxlamalıdır: «Kapitanın ən başlıca məqsədi gəmini salamat saxlamaq olsaydı o, gəmini daim limanda lövbərli saxlayardı».

Məlumatsız seçicilərin arzuladığı yerə gedən yolla onları aparmaq o qədər də çətin deyildir. Onların getməli olduqları yerə onları aparmaq isə öndərin əsl vəzifəsidir. *Qeyri-populyar bir şeyi populyar etmək öndərlik üçün ali sınaqdır.*

«Konqresmen, senator, vitse-prezident və prezident olduğum zaman mən cari iş fəaliyyətiylə o qədər məşğul idim ki, təhlilə vaxt, demək olar ki, heç qalmırdı».

Konqresmenliyə potensial namizəd siyasətin şərəfli iş olmadığı haqqındakı hər cür cəfəngiyatı başından çıxarmalıdır. *Mən işgüzar aləmin hər bir siyasətçidən daha qəddar olan öndərlərini tanıyırdım. Mən kilsə və elmi dairələrin öz mənsəbləri xatirinə adi bir siyasətçi kimi fitnələr quran rəhbərlərilə tanış idim.* Sadəcə, siyasətdəki rəqabət aspektləri biznes, təhsil və kütləvi informasiya vasitələrindəkilərdən daha çox diqqət cəlb edir. Həmin sahələrdəki rəqabətin kəskinliyi heç də az deyil, ancaq o daha üstüörtülüdür.

Siyasətin əsası məqsəddir. Siyasətçi qarşısına özündən də böyük məqsəd, yaxud şəxsi izzəti-nəfsinin həyata keçirilməsini qoyubsa o tərəddüd etməməlidir. Udub-uduzmağından asılı olmayaraq son nəticədə o, onun və ölkəsinin müqəddəratına təsir edən qərarları başqaları qəbul etdiyi zaman özünün kənarda qalmamasını görərkən məmnun olacaq.

### *Amerika Fəlsəfəsi*

Biz hər zaman bayrağımızı kor-koranə pərəstiş əşyası kimi deyil, irsimizi özündə ehtiva edən məfkurə kimi müdafiə etməli və ona ehtiram göstərməliyik. Yalnız bu irsin insanlar tərəfindən anlaşılması onlarda bayrağa əsl hörməti tərbiyə edir.

Müstəqillik Bəyannaməsinin müəllifləri 1776-cı ildə əzəmətli tarixi yenilikdə iştirak etdilər: *onlar ölkəni fəlsəfi ideyalar əsasında qurdular.* Ölkəmizin və hökumətimizin tarixi ideyaların tarixi əhəmiyyətini sübut edir. Sosial ədalət, hüquqların alınmazlığı, hökumətin səlahiyyətlərinin məhdudlaşdırılması və xalqın tam suverenliyi prinsipləri respublikamızın təməlində durur. Ölkəmiz onun əsasında duran ideyaların həm zəif, həm güclü cəhətlərini özündə təmsil edir. Geniş mənada fəlsəfə dünyada insanın özünün və ölkəsinin gələcəyinin dərk edilməsi vasitəsidir.

Özülü qoymuş banilərə məlumdur ki, qədim yunanlar demokratiya ilə məşhurlaşmışdılarsa da, əslində hökumətə inanırdılar və ölkənin idarəsini kütlələrə yox, ən savadlı, varlı və hazırlıqlı insanlarına verdilər.

Özülü qoymuş banilər Hobbsun əsərlərini oxumuşdular. O, hesab edirdi ki, insanın qəlbində tamahkarlıq yuva salıb. Buna görə də banilər insanların özünüidarə bacarığına şübhəylə yanaşdılar və avtoritar hökumət tərəfdarı kimi çıxış etdilər, onlar demokratiyanın «natiqlərin aristokratiyası»ndan başqa bir şey olmadığını həqarətlə bəyan etdilər. Onların bir çoxu Russoya valeh olmuşdu. O, hesab edirdi ki, təbiətcə saf olan insan düşkün mədəniyyətlə doğru yoldan sapdırılıb və insanın mahiyyətini təşkil edən məziyyətlərin bərpası üçün tam demokratiyanın əldə edilməsinin zəruriliyini qeyd edirdi.

Buna baxmayaraq, banilərin dünyagörüşünün nüvəsini, özülünü ingilis filosofu Lokkun və fransız filosofu Monteskyönün ideyaları təşkil edib. Bu ideyalar *şəxsiyyət, cəmiyyət və dövlət arasındakı münasibətləri müəyyənləşdirən* bənzəri olmayan amerikan fəlsəfəsinin özülündə yer tutub.

Lokk iddia edirdi ki, cəmiyyətin, yaxud idarəetmə institutunun formalaşmasından əvvəlki təbii şəraitdə şəxsiyyət təminatlı, xəlvət və xoşbəxt həyat sürürdü. *Şəxsiyyət yaşamaq, azadlıq, mülkiyyət və özünü-müdafiə hüququna malik idi. O, özünün razılığı olmadan hər hansı hökmdara tabelikdən imtina etmək və öz əməyilə yaratdığı təbiət əşyalarına sahib olmaq hüququna malik idi. Lokk söyləyirdi ki, insanlar arasında bu hüquqları təmin edən mütəşəkkilliyin olmamasından törənən «narahatlıqlar» səbəbindən cəmiyyət və hökumətin varlığına ehtiyac doğmuşdu. Eyni zamanda heç bir cəmiyyət, yaxud insanın yaratdığı hökumət qanun əsasında bu təbii hüquqları insanın əlindən ala bilməz.*

Banilər hökumətin zəruriliyinə inanırdılar, ancaq eyni zamanda hökumətə xas fəaliyyət dairəsinin məhdudlaşdırılmasını da anlayırdılar. *Hökumətin məqsədi kamil cəmiyyətin yaradılması deyildir, şəxsiyyətin cəmiyyətə daxil olmazdan əvvəl malik olduğu təbii hüquqlarının qorunmasına zəmanət verilməsidir.*

Amerika respublikasının baniləri xəyalpərəst utopistlə, yaxud başıboş praqmatiklər deyildi. Onlar əməli idealistlərdi. Onlar yaşadıqları dünyanı qeyri-kamil insanların məskunlaşdığı qeyri-kamil dünya kimi anlayır və təhlükəsizliyi, sabitliyi təmin edən, eləcə də rifahın yüksəlməsinə yardım edən idarəetmə formasını qurmağa çalışırdılar. Azadlıq konsepsiyası onların yolgöstərən ulduzu idi. Onlar möhkəm, hətta onların vəfatından sonra da yaşamağı bacaran bir qurum yaratmaq istəyirdilər. Bunun belə gözəl həyata keçirilməsi tarixdə çox az adamlara nəsib olub.

Banilərin özüldə qoyduğu əsas siyasi şərtlər olduqca sadədir: *fərdlər öz maraqları əsasında fəaliyyət göstərir, sabit idarəetmə isə bir-biri ilə rəqabət aparan maraqların tənzimlənməsinə əsaslanır.* Konstitusiyanın müəllifləri Monteskyönün ideyası əsasında icraçı, qanunverici və məhkəmə hakimiyyətləri arasında tarazlaşdırıcılar sistemini hazırladılar. Bu sistem həmin qurumların heç birinin bütün hakimiyyəti inhisarına almayacağına və bununla da xalqı istismar etməyəcəyinə zəmanət verirdi. *Onlar xalqın hüquqlarının qorunması üçün yetərincə gücü olan, ancaq həmin hüquqlara təhlükə törətməyə yetərincə gücü olmayan hökumətin mövcud olduğu sistemi yaratdılar.*

### *Kapitalizm*

Bəziləri kapitalizmi mənəviyyatsızlıqda günahlandırır. Ancaq düzünü desək, o, mənəviyyatdan kənardır. O, sərt surətdə sərvət yaradaraq ən yaxşı istehsalçıları mükafatlandırır və başqalarını kənarlaşdırır… İqtisadi sistemin məqsədi sərvət yaratmaqdır. Millətin mənəvi hissləri isə onu bu sərvətin bir hissəsinin sosial ehtiyaclara və kapitalist rəqabətinin xoşagəlməz nəticələrinin tənzimlənməsinə ayırmağa təhrik etməlidir.

Kapitalizmin təbiəti onun iki əsas fəlsəfi problemini doğurur. Birincisi, *bərabərlik və azadlıq arasındakı ziddiyyət.* Hər iki ideya kəmiyyətlə bizim ədalət hisslərimizə yönəldilib. Demokratiya həm azadlığın (iqtisadi mükəmməlliyə fərdi canatmalar da daxil olmaqla) mövcudluğunu, həm də vətəndaşlar arasındakı bərabərliyi nəzərdə tutur.

Kapitalizmin optimal fəaliyyəti üçün hamının qanun qarşısında bərabərliyi və bərabər imkanlarının olması zəruridir.

Ancaq kapitalizm son iqtisadi nəticələrin bərabərliyinə zəmanət vermir. Hökumət də buna zəmanət verməməlidir. İnsanlar bərabər ayrılmaz təbii hüquqlarla doğulur, amma hamının təbii istedadı eyni olmur. Bu, kapitalizmdə müxtəlif fərdi rifahlara gətirib çıxarır. Gəlirlərin vergilər vasitəsilə bərabərləşdirilməsi onların azaldılaraq bərabərləşdirilməsi deməkdir. İşin və səmərəliliyin nəticəsinə görə mükafatlandırma kapitalizmin əsas hərəkətverici qüvvəsidir. Biz gəlirlərin bərabərliyi naminə sərvətin bir hissəsinin yenidən bölüşdürülməsi hesabına bu mükafatı azaltsaq sərvətin yaradılmasına həvəsi söndürmüş olarıq.

Kapitalizmin ikinci dilemması *iqtisadi təhlükəsizliklə azadlıq arasındakı ziddiyyətdir.* Bəziləri hesab edir ki, hökumətin vəzifəsi hər kəsin tam iqtisadi təhlükəsizliyini təmin etmək olmalıdır. Digərləri belə sayır ki, bunun üçün iqtisadi azadlığı qurban vermək qətiyyən yolverilməzdir. Daha az uğur qazanmış insanlara yardımın səviyyəsinin müəyyənləşdirilməsi zamanı çətinlik doğur. Bu səviyyə çox aşağı olarsa lazımsız çətinliklər (sosial etirazlar – red.) törədər, yox, çox yüksək olarsa (sosializmdəki kimi – red.) özünütəminata nail olmaq həvəsini yatırar və tüfeyliliyə səbəb olar.

Banilər Müstəqillik Bəyannaməsində insanın «səadətə çatmaq» hüququnu qeyd ediblər, ancaq səadətin müəyyənləşdirilməsi məsələsini hər bir ayrıca şəxsin öhdəsinə qoyublar. Deməli, banilər razılığa əsaslanan idarəetmənin elə təşkilati formasını yaratmağa çalışıblar ki, o, insanlara cəmiyyətin, yaxud dövlətin müdaxiləsi olmadan öz bacarıqlarını müəyyənləşdirməyə və aşkarlamağa imkan yaratmış olsun.

* * *

.